Günəş Şərqdən doğur!

❒ № 70 (5351), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 22 aprel 2021-ci il (cümə axşamı)




## “Şərq TV"nin ilk efiri oldu

(Səh.8)

**Günün içindən...**



### “YAŞAT" Fondu ümumilikdə 63 qazini Türkiyəyə müalicəyə göndərib

**Bu günə qədər ”YAŞAT” Fondu tərəfindən Türkiyəyə müalicə üçün 63 qazi göndərilib.**

Bunu Fondun rəhbəri Elvin Hüseynov deyib. O bildirib ki, müalicəyə göndərilən qazilərdən 7 nəfər sağalaraq vətənə qayıdıb:

”Fond tərəfindən bu cür tədbirlər davam etdirilir. Növbəti dəfə 12 qazi müalicə üçün Türkiyəyə göndərilib.

(səh.2)

### 2022-ci il uzaqda deyil



80-90 yaşlı insanlarımız da Qarabağa Böyük qayıdışı gözləyirlər

(səh.3)

# Rusiyada kütləvi etirazlar başladı



## Navalnı ölüm təhlükəsi ilə üz-üzədir, aksiyada saxlanılanlar var

Rusiyada müxalifət lideri Aleksandr Navalnının saxlanma şəraitinin ağırlığı və bundan dolayı ölüm təhlükəsi ilə üzləşdiyi üçün minlərlə vətəndaş küçələrə axın edib. Aksiya iştirakçıları yolu bağlayıblar.

(səh.4)

## Bakıda yanğın baş verib

**Hadisə sökülmə ərəfəsində olan evlərdə qeydə alınıb**

(səh.9)



### ✓ Öz missiyalarını şübhə altına alır

Dünyanın heç bir yerində sülhməramlılar parad keçirmir

(səh.5)

### ✓ Biz hələ cavab gözləyirik

“İsgəndər M”lə bağlı fakt əlimizdə ən güclü silahdır

(səh.6)

### ✓ Keçidlər bir nömrəli problemdir

Amma sərnişinlərin özləri də elə bir “canlarından bezib”

(səh.15)

### ✓ Daha 2 075 nəfər koronavirusa yoluxub, 32 nəfər vəfat edib

(səh.9)

### Paşinyan erməni əhalisinin qəzəbinə tuş gəlib



Çünki artıq Sünik həm Naxçıvanın, həm də Azərbaycanın sərhədyanı ərazisinə çevrilib

(səh.5)

### Hava istidir, dözmək olmur...

Açıq havada maska taxmaq məcburiyyəti götürülməlidir



(səh.9)

# Hacıqabulda yol tikintisinə 5 milyon, yeni məktəb tikintisinə isə 1,5 milyon manat ayrılıb



**Prezident İlham Əliyev Hacıqabul rayonunun Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, on iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutacaq.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Prezident İlham Əliyev Hacıqabul şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı da tədbirlər haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Hacıqabul şəhərində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılıb.

## "YAŞAT" Fondu ümumilikdə 63 qazini Türkiyəyə müalicəyə göndərib



**Bu günə qədər "YAŞAT" Fondu tərəfindən Türkiyəyə müalicə üçün 63 qazi göndərilib.**

Bunu Fondun rəhbəri Elvin Hüseynov deyib. O bildirib ki, müalicəyə göndərilən qazilərdən 7 nəfər sağalaraq vətənə qayıdıb:

"Fond tərəfindən bu cür tədbirlər davam etdirilir. Növbəti dəfə 12 qazi müalicə üçün Türkiyəyə göndərilib. Qazilərin xaricə müalicəyə göndərilməsinə gəlincə isə bildirmək istəyirəm ki, bu, daxil olan müraciətlər əsasında müəyyən edilir. Hər hansısa qazinin müalicəsi üçün ölkənin səhiyyə ocaqları ilə əlaqə saxlanılır. Əgər bizə tibb müəssisəsindən rəsmi cavab verilsə ki, hansısa qazinin ölkəmizdə müalicəsi yoxdur, o zaman həmin qazi xaricə göndərilir".

## Mədəniyyət naziri koronavirusa yoluxub

**Azərbaycanın Mədəniyyət naziri Anar Kərimovdan yeni növ koronavirus (COVID-19) infeksiyası üçün götürülən analiz nümunələrinin nəticəsi müsbət çıxdığından o, bir müddətdir karantinə alınıb.**

Mədəniyyət Nazirliyindən bildirilib ki, COVID-19 virusuna yoluxan Anar Kərimov 16 aprel 2021-ci il tarixindən müalicə olunur və hazırda vəziyyəti stabildir.

Anar Kərimovla yaxın təmasda olan Mədəniyyət Nazirliyinin əməkdaşlarının da qaydalara uyğun olaraq karantinə alındığını və bir müddətdir fəaliyyətlərini məsafədən həyata keçirdiklərini bildiririk.




# MSK-nın tərkibi yenidən formalaşdırılır

**Mərkəzi Seçki Komissiyasının (MSK) tərkibi yenidən formalaşdırılacaq.**

**Parlamentdə təmsil olunan çoxluq (Yeni Azərbaycan Partiyası), azlıqda olan partiyalar və bitərəflərdən namizədlərini müəyyənləşdirərək, bu gündən başlayaraq təqdim etmələri istənilib.**

MSK üzvlüyünə namizədlərlə bağlı məsələnin yaxın günlərdə Milli Məclisdə müzakirəyə çıxarılması gözlənilir.

Qeyd edək ki, MSK 18 üzvdən ibarətdir və Milli Məclis tərəfindən seçilir.

MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını (bitərəfləri), 6 üzvü isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları təmsil edir. Bitərəf deputatları müstəqil, dövlət qulluğunda olmayan, bir qayda olaraq, hüquqşünaslar təmsil edirlər. Bitərəflərin iki namizədi maraqlı tərəflərlə razılaşdırılır: bir namizəd Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə. MSK-nın üzvləri ali təhsilli olmalıdırlar.

Yeni seçilən Milli Məclisdə çoxluq Yeni Azərbaycan Partiyasındadır (YAP). MSK-nın 6 üzvünün namizədliyi parlamentdə 70 deputatla təmsil olunan hakim partiya tərəfindən irəli sürüləcək. 6 üzvün namizədliyi yeni parlamentə düşmüş 45 bitərəf deputat tərəfindən veriləcək. (apa)

Milli Məclisdə azlığı isə 3 deputat mandatına malik Vətəndaş Həmrəyliyi Partiyası (VHP) və hər biri 1 deputat mandatına malik Böyük Quruluş Partiyası (BQP), Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP), Ana Vətən Partiyası (AVP), Vəhdət Partiyası, ReAL Partiyası, Milli Cəbhə Partiyası (MCP), Azərbaycan Demokratik Maarifçilik Partiyası (ADMP), Azərbaycan Demokratik İslahatlar Partiyası (ADİP) və Vətəndaş Birliyi Partiyası təmsil edir.

MSK-nın 6 üzvünün namizədliyini məhz bu 10 partiya öz arasında razılaşdıraraq irəli sürəcək.

# 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər təqdim olundu







**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sabunçu rayonu, Ramana qəsəbəsində daha 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər təqdim olunub.**

Nazirlikdən "Şərq"ə verilən məlumata görə, mənzillərin sənədlərini Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və Nazirlik yanında İctimai şuranın sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev təqdim ediblər.

V.Behbudov çıxışında şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə sosial dəstək göstərilməsi sahəsində aparılan genişmiqyaslı işləri diqqətə çatdırıb. O, Prezident Ilham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev veriləcəyini vurğulayıb.

Qeyd olunub ki, bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olanlara təqdim ediləcək. Bu gün verilən mənzillər də daxil olmaqla 2021-ci ilin planı üzrə artıq 300 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə verilib. 2021-ci ildə regionlarda 450 fərdi ev də tikilərək qeyd olunan kateqoriyadan olan şəxslərə təqdim ediləcək.

U.Mirzəyev şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təmin edilmələrinin dövlət başçısının bu kateqoriyadan olan şəxslərə xüsusi qayğısının daha bir təzahürü olduğunu kimi qeyd edib.

Sonra mənzillərlə təmin olunan şəxslər çıxış edərək, hər zaman hiss etdikləri dövlət qayğısına, habelə bu gün yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

Ümumilikdə indiyədək şəhid ailələrinə, müharibə əlillərinə 9500 mənzil və fərdi ev verilib.

# Üçtərəfli bəyanatın tələbləri pozulur

## Ərazilərimizdə keçiriləcək hər hansı tədbir Azərbaycanla razılaşdırılmalıdır

**Tofiq Zülfüqarov:**
“Sülhməramlılar hərbi parad keçirmək istəyirlərsə, onda Azərbaycan Silahlı Qüvvələri də həmin tədbirdə təmsil olunmalıdır”

**Ədalət Verdiyev:**
“Rusiya paradı təkbaşına keçirmək istəyirsə, onda məkan olaraq Gümrüdəki hərbi bazanı seçsin”





Xankəndi aeroportunda Rusiya hərbçilərinin Qələbə Günü paradına hazırlıq məşqləri başlanıb. Bu haqda Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda deyilir ki, Dağlıq Qarabağa yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti 2-ci Dünya Müharibəsində keçmiş Sovet İttifaqının qələbəsi münasibətilə təntənəli keçidin məşqlərinə başlayıb. Xankəndi şəhərindəki aeroportda təlimlərə 400-dək Rusiya hərbçisi cəlb olunub.

Təlimlərə 15-ci motoatıcı briqadanın, humanitar reaksiya mərkəzinin şəxsi heyətlərinin, hərbi polisin, xüsusi təyinatlı tibbi bölümün, eləcə də maddi-texniki təchizat bölümlərinin cəlb olunduğu bildirilir. Bu il mayın 9-na planlaşdırılan paradda hər biri 45 hərbçidən ibarət 10 dəstənin keçəcəyi gözlənilir.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov ”Şərq”ə açıqlamasında sözügedən məsələyə belə münasibət bildirdi:** ”Sülhməramlılar hərbi parad keçirmək istəyirlərsə, onda Azərbaycan Silahlı Qüvvələri də həmin tədbirdə təmsil olunmalıdır. Azərbaycan Ordusunun xüsusi təyinatlıları və Türkiyə hərbçiləri mütləq keçiddə iştirak etməlidirlər”.

**Hərbi ekspert Ədalət Verdiyev da sabiq nazirlə eyni fikirdədir:** ”Əvvəla, bu, Azərbaycanla razılaşdırılmalıdır. İkinci bir tərəfdən isə orada Azərbaycan hərbçiləri ilə yanaşı, İkinci Dünya müharibəsində, Qarabağ savaşında iştirak etmiş qazi və veteranlar, qəhrəmanların əzizləri iştirak etməlidirlər. Məsələn, general Həzi Aslanovun ailəsindən kiminsə o tədbirdə olması məqsədəuyğundur. Dediyim kimi, rəsmi Bakının iştirakı və razılığı olmadan, üstəgəl, üçtərəfli bəyanatın tələblərinə zidd şəkildə belə bir tədbirin keçirilməsi yolverilməzdir. Rusiya paradı təkbaşına keçirmək istəyirsə, onda məkan olaraq Gümrüdəki hərbi bazanı seçsin”.

*Ə.Verdiyev, həmçinin digər qaranlıq məqamlara da aydınlıq gətirdi:* ”Bu tədbir erməni terrorçular Qarabağdan tam çıxarıldıqdan sonra keçirilməli idi. Onu da deyim ki, ”parad” adlandırılsa da, əslində hərbi keçidin təşkili nəzərdə tutulur. Çünki parad elementləri yoxdur”.

**Kənan Novruzov**



## Türkiyənin Azərbaycandakı yeni səfiri fəaliyyətə başlayıb

**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı vəzifəsinin icrasına başlayıb.**

Bu barədə Türkiyə səfirliyinin ”Twitter” səhifəsində bildirilib.

Qeyd olunur ki, aprelin 19-da Bakıya gəlmiş C.Bağcı səfirliyin əməkdaşları ilə tanış olub.

*Xatırladaq ki, C.Bağcı aprelin 3-də Türkiyənin Azərbaycandakı səfiri təyin olunub.*

## Rusiya 10 ABŞ diplomatını ölkədən çıxarır



**Rusiya ABŞ-ın 10 diplomatını persona-non qrata elan edib. Trend-in məlumatına görə, bu barədə Rusiya Xarici İşlər Nazirliyi bildirib.**

Qeyd olunur ki, bununla bağlı ABŞ səfirinin müavininə nota təqdim olunub. Həmin diplomatların mayın 21-dən ölkəni tərk etməsi tələb olunub.

*Xatırladaq ki, ötən həftə ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edib və 10 rusiyalı diplomatı ölkədən çıxardığını elan edib.*

# 2022-ci il uzaqda deyil

## 80-90 yaşlı insanlarımız da Qarabağa Böyük qayıdışı gözləyirlər

Prezident İlham Əliyevin AzTV-yə müsahibəsində diqqət çəkdiyi mühüm məsələlərdən biri də işğaldan azad edilmiş torpaqlarımızın bərpası orada aparılan quruculuq işlərinin gedişatı ilə bağlı idi. Ölkə rəhbəri bir sıra şəhərlərin planlarının hazır olduğunu, infrastrukturların qurulduğunu vurğuladı. Xüsusən qeyd etdi ki, bu il ərzində əsaslı işlər görüləcək və artıq gələn ildən köçkünlərin bir qrupu öz torpaqlarına köçürüləcək. Prezident bəyan edib ki, birinci pilot layihə Zəngilan rayonunda icra ediləcək - "Ağıllı kənd" layihəsidir:



”Bu layihə üç kəndi - 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edəcək. Ümid edirəm ki, gələn il artıq bu ilk pilot layihə icra ediləcək və beləliklə, əvvəlcə keçmiş köçkünlərin birinci qrupu öz doğma torpaqlarına qayıdacaqlar”. Dövlət başçısı bildirib ki, bütün şəhərlərin baş planları hazırlanır: ”İlk növbədə, Ağdam şəhərini əhatə edəcək. May ayının sonuna qədər Ağdam şəhərinin baş planının ilkin versiyası təqdim olunacaq və rayon ictimaiyyəti ilə birlikdə müzakirə ediləcək. Kəndlərin bərpasına gəldikdə, burada da biz işlərimizi mərhələlərə bölməliyik. İlk növbədə, biz mövcud infrastruktura yaxın olan kəndləri bərpa etməliyik. Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı müvafiq göstərişlər verilib”.




*“Mən çoxlu sayda insan tanıyıram ki, onlar nəinki abadlıq-quruculuq işlərindən sonra, hətta elə indi də öz ata yurdlarının xarabalıqlarında yaşamağa, öz evlərini öz əlləriylə tikməyə hazırdırlar”*

Torpaqlarımız düşmən işğalından azad olunduqdan sonra Qarabağa Böyük Qayıdışla bağlı müxtəlif versiyalar səslənir. Ümumən isə köç prosesinin illərlə yubanacağı vurğulanırdı ki, bu da cəmiyyətdə narahatlığa səbəb olurdu. Lakin ölkə rəhbərinin açıqlamasından aydın olur ki, insanlarımızın öz doğma yurd-yuvasına qayıdışı ən qısa zamanda reallaşacaq.

**Cəbrayıl rayonundan olan tanınmış jurnalist, Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri Seymur Verdizadə ”Şərq”ə deyib ki, ölkə rəhbərliyinin köç prosesinə xüsusi diqqət yönəltməsi çox müsbət haldır.** Səbirsizliklə doğma yurda qayıtmağı gözləyən jurnalist bildirib ki, Böyük Qayıdış Qarabağın geri qayıtması qədər böyük hadisə olacaq: ”Təkcə qarabağlılar deyil, Azərbaycan xalqı 28 ildi səbirsizliklə bu günü gözləyir. İnşallah, arzumuz tezliklə çin olacaq. Köç prosesinin yaxın bir-iki ildə gerçəkləşəcəyilə bağlı anonslar xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, keçmiş məcburi köçkünlər arasında yaşlı insanlar az deyil. 80-90 yaşlı babalarımız, nənələrimiz var ki, neçə illərdir Əzrayıla can verməyib, bu günü gözləyirlər. Müharibədən sonra ortaya belə fikirlər atıldı ki, keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına dönüşü ən azı 5-10 il çəkəcək. Bu fikirlər köçkünlər arasında, xüsusilə də yaşlı insanlar arasında pessimizmə səbəb olmuşdu. Çünki 80-90 yaşlı adamın bundan sonra 5-10 il yaşayacağına ümidi bir o qədər də çox deyil.

İndi isə fərqli situasiya yaranıb. 2022-ci il o qədər də uzaqda deyil. Bu xəbər hətta yaşlı insanların da yaşamaq eşqini alovlandırır, insanları bir qədər də ruhlandırır.

Mən çoxlu sayda insan tanıyıram ki, onlar nəinki abadlıq-quruculuq işlərindən sonra, hətta elə indi də öz ata yurdlarının xarabalıqlarında yaşamağa, öz evlərini öz əlləriylə tikməyə hazırdırlar. Ümid edirəm, onların bu arzusu nəzərə alınacaq. İşsiz köçkünləri Qarabağdakı bərpa prosesinə cəlb etmək çox yaxşı olar. Məcburi köçkünlərin qayıdışı ilə o torpaqlar təkrar cana gələcək, Qarabağ yenidən cənnətə dönəcək”.

**İsmayıl Qocayev**

# Strateji tərəfdaşlarımızdan səmimiyyət istəyirik



## Fərəc Quliyev: "Dövlət başçısının baxış bucağı tamamilə milli iradəyə uyğundur"

Dünən Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib. O, çıxışında bir sıra mühüm məqamlara toxunub. Dövlət başçısı, həmçinin Ermənistanın silahla təmin olunmasından danışıb: "Biz beynəlxalq aviasiya təşkilatı olan ICAO-ya rəsmi məktublar göndərmişik. O məktublarda deyilir ki, biz dəqiq bilirik, - reyslərin nömrələrini də vermişdik, yazmışdıq, - bu təyyarələrlə, sərnişin təyyarələri ilə Rusiyadan Ermənistana silahlar gətirilir. Silahların növlərini də göstərmişdik.

Baxmayaraq ki, müharibə dövründə dəfələrlə belə məktublar göndərilib, ancaq ICAO-dan heç bir cavab gəlməyib. Amma biz dəqiq bilirik ki, bir erməni silah alverçisi David Qalustyan Rusiyada oturub Rusiya hərbi zavodlarından qanunsuz yollarla silahları alıb sərnişin təyyarələri ilə göndərib. O silahların pulunu Rusiyada fəaliyyət göstərən erməni oliqarxları ödəyib - Obramyan, Karapetyan. Bu, cinayətdir".

Prezident qarşı tərəfin bundan ötrü məsuliyyət daşıdığını söyləyib: "Onlar buna görə cinayət məsuliyyətinə cəlb edilməlidir. Bu silahlar müxtəlif qaçaqmalçılıq yolları ilə Ermənistana göndərilib. Biz onu da Rusiya tərəfinə bildirmişik ki, David Qalustyan Ermənistanın keçmiş müdafiə naziri Tonoyanın biznes şərikidir. Onlar bunu, eyni zamanda, qanunsuz qazanc kimi edirdilər".

Millət Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev sözügedən dövlətlərin riyakarlığı barədə fikirlərini "Şərq"lə bölüşüb: "Dövlətlər öz mövqelərini açıq şəkildə ortaya qoymalı- dost ya düşmən olduqlarını konkret deməlidirlər. Prezidentin də dediyi kimi, strateji tərəfdaşıqsa, deməli, qarşılıqlı əlaqələrdə səmimi olmalıyıq. Necə ki, rəsmi Bakı öz davranışlarında həmişə səmimi olub. Müharibə vaxtı Rusiyanın Ermənistana ayrı-ayrı vaxtlarda 500 ton, 400 ton silah göndərməsi, həmin silahların mülki təyyarələrdə daşınması, yükləri Ermənistan tərəfindən kimlərin qarşılaması və hətta marşrut bizə yaxşı məlumdur. Bunları biz biliriksə, deməli, Rusiya da bilir. Ona görə də qarşılıqlı münasibətlərdə səmimiyyət istəyirik".

**F.Quliyev, həmçinin Qarabağdakı rus hərbçilərinin fəaliyyəti barədə də danışdı:** "Yenə də Prezidentin dediyi kimi, sülhməramlılar gələndə elə bilirdik ki, əməkdaşlığımızda yeni format yaranacaq. Lakin qarşılaşdığımız mənzərə bizi təəccübləndirdi və təəssüfləndirdi. Bunlar ölkə ictimaiyyətini maraqlandıran, olduqca mühüm məsələlərdir. Dövlət başçısının baxış bucağı isə tamamilə milli iradəyə uyğundur. Mən partiya sədri olaraq bu baxışlar sistemini dəstəkləyirəm və sonadək müdafiə edəcəm".

**Kənan**



## Rusiyada kütləvi etirazlar başladı

### Navalnı ölüm təhlükəsi ilə üz-üzədir, aksiyada saxlanılanlar var

**Rusiyada müxalifət lideri Aleksandr Navalnının saxlanma şəraitinin ağırlığı və bundan dolayı ölüm təhlükəsi ilə üzləşdiyi üçün minlərlə vətəndaş küçələrə axın edib. Aksiya iştirakçıları yolu bağlayıblar.**

"Şərq" "L' Agence France-Presse" ə istinadən xəbər verir ki, siyasətçinin yaxınları və vəkili onun martın sonundan aclıq aksiyasına başladığını deyiblər:

"A.Navalnı ölüm təhlükəsi ilə üz -üzə qalıb. O, saxlanma şəraitinin ağırlığına etiraz edərək belə qərar verib. O bununla öz ölümünə fərman verib".

*Qeyd edək ki, aksiya iştirakçılarından 400 nəfəri Rusiya polisi tərəfindən saxlanılıb.*

**Ayyət**

## Rusiyanın "İsgəndər M"lə bağlı açıqlaması gülüncdür

### Onlar hər il saxta informasiyaların hazırlanmasına 1, 5 milyard dollar xərcləyir



**Şuşa şəhərinə atılan "İsgəndər M" raketi ilə bağlı Rusiyanın səssizliyi neçə gündür ki, müzakirə olunur. Rəsmi Kreml dəfələrlə açıqlama verməkdən yayınaraq "gah nala, gah da mıxa vurur".**

Nəhayət Rusiya sükutunu pozaraq mətbuatda Azərbaycana qarşı təxribatçı mövqedən çıxış edib. "İsgəndər" raketinin qalıqlarının guya Suriyadan gətirilərək Şuşada yerləşdirdiyini yazmaqla ermənilərə "informasiya" dəstəyi verib.

**Rusiyanın dünyada ən çox yalan xəbər istehsal etdiyini söyləyən tanınmış media eksperti, BDU-nun professoru Qulu Məhərrəmli "Şərq"ə bildirib ki, Kremlin Azərbaycana qarşı informasiya müharibəsi aparması birinci hal deyil.** Professor vurğulayıb ki, ruslar müəyyən məqamlarda erməni mediası və siyasi elitası ilə birgə çıxış etməsi təəccüb doğurmur: "Bu yaxınlarda Amerika Senatındakı hesabatlarda deyilirdi ki, Rusiya il ərzində yalan və saxta informasiyaların hazırlanmasına təxminən 1-1.5 milyard dollar xərcləyir. "İsgəndər M" raketi ilə bağlı verdikləri açıqlama isə çox gülünc, uydurma və saxta məlumatdır. Hətta "İsgəndər M" Suriyadan gətirilmiş olsa belə, yenə də Rusiyanın əməlidir".

**Q.Məhərrəmlinin qənaətincə, son dövrlər Rusiyanın qərb tərəfindən blokadaya alınması və sanksiyaların tətbiq olunması onları çıxılmaz vəziyyətə salıb:** "Ona görə də müxtəlif cəbhələrdə döyüş aparmağa gücü çatmayan Rusiya zay məhsullar istehsal edir. Təbii ki, bunların hər biri yalandır. Rusiya mətbuatı və televiziyalarının, ümumiyyətlə, mediasının xisləti tamamilə yalan üzərində qurulub. Hesab edirəm ki, ilk növbədə ABŞ konkret addımlar atmalıdır. Rusiyanın hər kəs üçün qorxu mənbəyi olmasını anlamaq lazımdır. Qarabağ hadisələri, indi isə Ukrayna ətrafında cərəyan edənlər bir daha göstərdi ki, Rusiyanı yerində oturtmaq zamanıdır".

**Yeganə Bayramova**

# Vəziyyəti Azərbaycan əsgəri dəyişdi

### 44 günlük savaşdan bütün beynəlxalq təşkilatlar dərs çıxarmalıdır

**"Ötən il Dağlıq Qarabağda baş verənlər "dondurulmuş" münaqişənin olmadığını bizlərə xatırlatdı. Biz sülhün yaradılması üçün bütün səylərimizi səfərbər etməliyik".**



## Avropa Şurası nüfuzunu itirməkdənsə haqqın, ədalətin yanında yer almalıdır

Bu fikirləri Avropa parlamentinin prezidenti David Sassoli Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yaz sessiyasında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, ötən il Avropa Şurasının iki üzv dövləti arasında müharibə oldu: "Hər iki ölkə böyük itkilərə məruz qaldı. Bu bizə xatırlatdı ki, heç bir "münaqişə dondurulmuş" qala bilməz. Biz bu halların baş verməməsi üçün sülh naminə bütün səylərimizi səfərbər etməliyik".

**Mövzuya münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi-şərhçi Tural İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Avropa Şurası 44 günlük Vətən müharibəsi dövründə özündən gözlənilən hansısa siyasi təsir vasitələrindən istifadə etmədi.** Politoloq qeyd edib ki, 30 il ərzində Azərbaycan torpaqlarının işğalda qalmasına səssiz qalan Avropa Şurası da daxil olmaqla, Qərbin bir sıra aparıcı beynəlxalq təşkilatları doğru və dürüst mövqe ortaya qoymadılar: "Avropanın bir sıra nüfuzlu qurumları tərəfindən də qəbul edilən Azərbaycanın ərazi bütövlüyü məsələsində təəssüf ki, bir sıra beynəlxalq təşkilatlar düzgün mövqe sərgiləmədilər. Nəticədə Azərbaycan torpaqları 30 ilə yaxın işğalda qaldı. Eyni zamanda bir milyondan çox qaçqın və məcburi köçkünümüz oldu. Ümumiyyətlə, qaçqınlarımız və məcburi köçkünlərimizlə bağlı da nə beynəlxalq qurumlar, nə də ki, Avropa Şurasının tərkibində bununla məşğul olan beynəlxalq qurumlar hansısa effektiv, əməli addımlar atmadılar. Məhz bu səbəbdən də düşünürəm ki, artıq Vətən müharibəsində Azərbaycanın qazandığı qələbədən sonra Avropa Şurasının üzərinə çox böyük siyasi yük düşür".

**T.İsmayılov bildirib ki, beynəlxalq hüququn, haqqın, ədalətin yanında olmadıqca bu kimi beynəlxalq təşkilatlar artıq öz nüfuzlarını itirirlər:** "Bildiyimiz kimi, ötən gün Avropa Şurası Parlament Assambleyasında iclas keçirildi. İclasda minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən Azərbaycana verilməməsi ilə bağlı AŞ PA-nın bəzi millət vəkilləri və Miqrasiya Komitəsinin rəhbərinin açıqlamalarını təqdirəlayiq hesab edirəm. Ancaq orada yenə də erməni təsiri özünü göstərirdi. Çünki AŞ PA-da Ermənistan tərəfindən ələ alınan bəzi adamlar Azərbaycanı saxta şəkildə əsirlər məsələsi ilə bağlı sıxışdırmağa çalışırdı. Bildiyimiz kimi, Azərbaycan Vətən müharibəsində əsir düşən erməniləri artıq geri qaytarıb. 10 noyabr razılaşmasından sonra torpaqlarımıza gələnlər isə təxribatçı, terrorçu diversantlar hesab olunur. Bu baxımdan, Avropa Şurası Parlament Assambleyası birtərəfli şəkildə haqqın, ədalətin yanında yer almalıdır. Və cənab David Sassolinin açıqlamaları fonunda bundan sonra Avropa Şurası və Avropadakı siyasi təşkilatları Azərbaycanın haqq işinə dəstək verməlidir. Çünki beynəlxalq hüququn, haqqın, ədalətin yanında olmadıqca, istər Avropa Şurası, istər 30 ildir cəmiyyətimiz tərəfindən tənqid edilən ATƏT, istərsə də Avropa Birliyi kimi təşkilatlar öz nüfuzlarını itirirlər. Onlar dünyada heç bir siyasi çəkiyə malik olmadıqlarını bir daha nümayiş etdirirlər".

**Aynurə Pənahqızı**

# Öz missiyalarını şübhə altına alır

## Dünyanın heç bir yerində sülhməramlılar parad keçirmir



### "9 may paradına hazırlıq gündəmi dəyişmək cəhdidir"



**"Qarabağdakı sülhməramlıların 9 may - qələbə paradına hazırlığı Kremlin yeni gündəm dəyişmək oyunudur!".**

Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Turan Rzayev deyib. Analitik bildirib ki, dünyanın heç bir yerində sülhməramlılar parad keçirmir: "Qələbə günü keçmiş sovet xalqlarının ümumi bayramı sayılır. Amma bu, sülhməramlılara müvəqqəti olaraq onların səlahiyyətində olan Azərbaycan torpaqlarında hərbi parad keçirmə haqqını tanımır. Rusiyanın Qarabağdakı sülhməramlı kontingenti başa düşməlidir ki, onlar burada əbədi qalmayacaq. 10 noyabr bəyanatının müvafiq bəndində onların səlahiyyətləri də, səlahiyyət zonaları da, xidmət müddətləri də açıq şəkildə göstərilib. Göstərilənlər xaricində nələrinsə edilməsi Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin ilk növbədə sülhməramlı missiyasını şübhə altına salır. Əgər Rusiya Xankəndini Azərbaycanın yurisdiksiyasında görürsə, parada azərbaycanlı rəsmilər və hərbçilər də dəvət edilməlidir. Digər tərəfdən paradla bağlı rəsmi Bakının razılığı alınmalı, ehtimal təxribat cəhdlərinin qarşısını almaq öhdəliyi götürülməlidir".

**Ekspert vurğulayıb ki, Rusiyanın hazırda Qarabağda parad keçirməkdən daha önəmli işləri var:** "Məsələn, "İsgəndər-M" raketi məsələsinə Kreml həlı də aydınlıq gətirməyib. Prezident neçənci dəfədir, Moskvaya "İsgəndər-M" raketləri ilə bağlı suallar ünvanlayır. Kreml isə sadəcə susur. Xatırlayırsızsa, 44 günlük müharibə zamanı yanlışlıqla Rusiya helikopteri vurulandan dərhal sonra Azərbaycan rəsmi Moskvadan üzr istədi. Rusiya tərəfi indiki halda nəinki üzr istəyir, heç məsələyə rəsmi münasibət də bildirmir. Bunun əvəzində gündəmi dəyişmək cəhdləri edilir. 9 may paradına hazırlıq da gündəmi dəyişmək cəhdidir".

**İsmayıl**

---

**Ermənistanın baş naziri Nikol Paşinyan Sünik vilayətində etiraz aksiyası ilə qarşılanıb. Etirazçılar onun olduğu avtomobilin yolunu bağlayıblar. Baş nazir aksiyaçılarla söz güləşinə çıxıb.**



# Paşinyan erməni əhalisinin qəzəbinə tuş gəlib

## Çünki artıq Sünik həm Naxçıvanın, həm də Azərbaycanın sərhədyanı ərazisinə çevrilib

Ermənistan mətbuatının xəbərinə görə, Mehridə yüzlərlə insan Paşinyanı "xain", "türk", "kapitulyator" qışqırıqları ilə qarşılayıb. Paşinyan buna cavab olaraq Sünik sakinlərinə ürəyindən keçənləri deyib:

"Ara, kapitulyant özünüzsünüz!".

Kacaran sakinləri də Paşinyanı şəhərə buraxmayıblar. Bu barədə "Telegram"ın erməni seqmentində video yayımlanıb. İnsanlar Paşinyanın gəlişinə etiraz edərək onun şəhərə girişinə mane olublar.

Xatırladaq ki, baş nazir bu yaxınlarda Vayosdzor bölgəsinə səfəri zamanı ikinci Qarabağ müharibəsində ölən əsgərlərin məzarlarını da ziyarət etmək istəyib. Lakin qəbiristanlıqda olan əsgər yaxınlarından biri Paşinyana məzarın üzərinə gül qoymağa icazə verməyib: "Bu, qardaşımın məzarıdır. Mənim buna haqqım var. Sizə icazə vermirəm".

**Ermənilərin Paşinyana qəzəbi barədə "Şərq"ə danışan politoloq Əhməd Əlili bildirib ki, Sünik vilayətində yaşayan ermənilər birdənbirə Azərbaycanla sərhəddə olduqlarını gördülər.** Məhz bundan sonra Paşinyan erməni əhalisinin qəzəbinə tuş gəlib: "Sovet hakimiyyəti illərində ümumi sərhədlər var idisə, hazırda Sünik həm Naxçıvan, həm də Azərbaycanın sərhədyanı ərazisinə çevrilib. Bu da ermənilərin böyük narazılığına səbəb oldu. Ermənistanda keçirilən mitinqlərə toplanan insanların böyük qismi Sünik vilayətində yaşayanlar idi".

Analitik qeyd edib ki, Paşinyanın etirazçıları "kapitulyant" adlandırmasının bir səbəbi var: "Baş nazir gözləyirdi ki, insanların böyük qismi özünümüdafiə dəstələrində toplanıb döyüşlərdə iştirak etməli idilər. Amma bəlli oldu ki, Ermənistanda diversantların sayı gözləniləndən qat-qat çox idi. Ona görə də Sünik əhalisi "məğlubiyyətin günahı kimdədir" sualı zamanı Paşinyanı ittiham edirlər.

Paşinyan isə özünümüdafiə dəstələrində iştirak etməyən yerli və Sünik, Zəngəzur əhalisini günahlandırır. Nəzərə almaq lazımdır ki, dünən Prezident İlham Əliyev Zəngəzuru Azərbaycan torpaqları adlandırıb və vətəndaşlarımızın ora qayıtmasını qeyd edib.

Əlbəttə ki, bütün bunlar Sünikdə yaşayan ermənilərdə emosiyallığa səbəb olub. Nəticədə Paşinyanın ora səfəri zamanı əhali qəzəbini saxlaya bilməyib".

**Yeganə Bayramova**

---

Son günlər Ermənistanda yeni atom elektrik stansiyasının tikiləcəyi ilə bağlı bəyanatlar verilir. Ölkənin baş naziri Nikol Paşinyanın bu yaxınlarda Moskvaya səfəri zamanı da Rusiya rəsmiləri ilə yeni AES-in tikintisi müzakirə edilib.

# Beynəlxalq ictimaiyyət göz yumur

## Cənubi Qafqazın 16 milyon əhalisi təhlükə altındadır



### Ermənistan bölgə əhalisini Metsamorun fəaliyyəti ilə təhdid edir

Ancaq erməni ekspertlər bunun texnoloji və s. cəhdlərini kənara qoyub daha çox maliyyə tərəfini təhlil edirlər. Onların qənaətincə, bu stansiyanın inşasına 5-7 milyard dollar məbləğində maliyyə vəsaiti tələb olunur. Bununla belə Ermənistandakı mövcud Metsamor Atom Elektrik Stansiyası region dövlətləri üçün təhlükə mənbəyi olaraq qalır. 2014-cü ildə Rusiya ilə Ermənistan arasında AES-in 2026-cı ilədək istismar müddətinin uzadılması üzrə hökumətlərarası razılaşma imzalanıb. Stansiyanın radioaktiv tullantılarının daşınmasında problemlər var. Tullantının miqdarı çox olduğundan onun ölkə ərazisindən çıxarılması əsas məsələ olaraq qalır. Tullantıların Rusiyaya təyyarə ilə daşınması mümkün deyil. Gürcüstan üzərindən quru yolla daşınmasını da bir sıra səbəblərə görə reallaşdırmaq olmur. Ona görə də tullantılar ölkə ərazisindəki keyfiyyəti məlum olmayan quyularda saxlanılır. Bu isə bölgə dövlətləri üçün təhlükə yaradır.

**Ermənistandakı Metsamor AES təhlükəsini dəyərləndirən politoloq Sədrəddin Soltan vurğulayıb ki, bu stansiya Türkiyə sərhədindən 17,5 km, İran sərhədindən 60 km, Azərbaycan sərhədindən isə 75 km məsafədə yerləşir.** Ekspertin sözlərinə görə, Ermənistanın hazırkı böhranlı vəziyyətində stansiyaya qulluq üçün maliyyə vəsaiti çatışmazlığı istisna edilmir. Bu isə onun təhlükəsiz istismarının mümkün olmadığı ehtimalını artırır: "BMT-nin energetika məsələləri üzrə eksperti Ara Mərcanyan bu günlərdə bildirib ki, Ermənistandakı Atom Elektrik Stansiyasının təmiri ən azı 2-3 il gecikib. Bir neçə il qabaq Ermənistan stansiyanın fəaliyyətini dayandıracağına dair sənəd imzalamışdı. Sənədi Ermənistan tərəfdən ovaxtkı energetika naziri Armen Movsisyan, ABŞ tərəfdən isə Ermənistandakı keçmiş səfir Con Heffern imzalamışdılar. Səfir bildirmişdi ki, Amerika Avropa İttifaqının atom stansiyasının 2016-cı ilədək dayandırılacağı barədə mövqeyini bölüşür. Göründüyü kimi, Ermənistan hakimiyyəti AES-in fəaliyyətini dayandıracağı ilə bağlı öhdəliyi yerinə yetirmir. Bu isə Metsamordakı stansiyanın beynəlxalq ictimaiyyətin nəzarət və icazəsi olmadan istismar edildiyi deməkdir. Beləliklə, Cənubi Qafqazda nüvə təhlükəsi var. Ermənistan bölgə əhalisinin həyatını nəzarətsiz, müddəti keçmiş, radioaktiv tullantısını basdıra bilməyən AES-in fəaliyyəti ilə təhdid edir. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və atom-nüvə texnologiyasından istifadəyə xeyir-dua verən dövlətlər - ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Rusiya və Çin Metsamorun ziyanlı fəaliyyətinə göz yumur".

*Siyasi şərhçi vurğulayıb ki, İranın bu istiqamətdə fəaliyyəti beynəlxalq ictimaiyyəti narahat etdiyi halda Ermənistandakı stansiyanın istismarına etinasız yanaşırlar:* "Beynəlxalq ictimaiyyət başqa məsələlərdə olduğu kimi, Ermənistanın atom-nüvə texnologiyası sahəsindəki ziyanlı və zərərverici fəaliyyətini görməzliyə vurur. Onlar 30 ilə yaxın idi ki, Azərbaycan torpaqlarını işğal altında saxlamaqla beynəlxalq hüququ pozur, işğala son verməsinə dair imzaladığı sənədlərə məhəl qoymurdu. Ancaq Azərbaycan Ordusu 44 gün ərzində onlara yerini göstərdi. Görünür, Ermənistan ancaq zor və güc tətbiqi ilə reallığı qəbul edir. Odur ki, nüvə texnologiyasından istifadə ilə bağlı beynəlxalq normaları saymadığı üçün Ermənistana sanksiya tətbiq edilməsinin vaxtı çoxdan çatıb. Sanksiya tətbiq edilmədiyindən ölkə rəhbərliyi, ermənilərin sponsorları və beynəlxalq ictimaiyyət Cənubi Qafqazda 16 milyondan artıq insanın həyatını və sağlamlığını təhlükə altına qoyub".

**İsmayıl Qocayev**

Prezident İlham Əliyev aprelin 20-də Hacıqabula səfəri zamanı Azərbaycan Televiziyasına müsahibə verib. Ölkə başçısı açıqlamasında mühüm məqamlara toxunub. Prezident qeyd edib ki, "İsgəndər M" raketlərini bizə atan Rusiya və Ermənistandan rəsmi cavab verilməlidir:

# Biz hələ cavab gözləyirik

## "İsgəndər M"lə bağlı fakt əlimizdə ən güclü silahdır

### Suallarımızın cavabını ya Rusiya verməlidir, ya da Ermənistan

"Bu sözləri deyəndən sonra ertəsi gün Rusiya Müdafiə Nazirliyi Azərbaycan Müdafiə Nazirliyinin məktubuna cavab göndərib. Mən bu cavabla tanış oldum. Azərbaycan xalqına hər şeyi olduğu kimi deməliyəm. Çünki bu, çox ciddi məsələdir. Bu, sıradan olan məsələ deyil. Ona görə burada hər hansı bir məxfiliyə yol vermək olmaz. Cavabda göstərilib ki, Rusiya tərəfi ballistik raketlərin buraxılmasını müəyyən etməyib".

Bu, əslində, bizim məktubumuza olan tam cavab deyil. Çünki bizim məktubumuzda əsas sual ondan ibarət idi ki, ixrac üçün qadağan edilən və ölümcül "İsgəndər-M" raketləri Ermənistanın əlinə necə düşüb? Axı, bu, mümkün deyil. Bunun iki yolu var: ya qaçaqmalçılıq yolu ilə, ya da ki, beynəlxalq normaları, qaydaları pozmaq yolu ilə. Çünki Ermənistan ordusunda ancaq "İsgəndər-E", yəni, ekspert - ixrac variantı ola bilər. Onların arasında böyük fərq var. "İsgəndər-E" raketlərinin atəş məsafəsi 280 kilometrdir. "İsgəndər-M" raketləri daha uzaqmənzilli raketlərdir. Burada məsafə 500 kilometrdir. Yəni Ermənistan ordusunda "İsgəndər-M" raketləri ola bilməzdi. Bunun ancaq iki yolu var. Başqa yolu ola bilməz. Çünki heç bir başqa ölkədə bu raketlər yoxdur. Bax, bu suala bizə cavab verilməlidir. Biz bu cavabı gözləyirik, Azərbaycan xalqı gözləyir. Biz bir çox məsələləri özümüz üçün aydın etmişik. Biz bilirik bu raketlər nə vaxt və nə üçün atılıb. Ancaq bizə rəsmi cavab verilməlidir, bu raketləri bizə atan Ermənistandan və Rusiyadan. Bu raket sistemləri ya Ermənistana verilib, yaxud da ki, qanunsuz yollarla Rusiyadan oğurlanaraq çıxarılıb. Bu suallara cavab yoxdur".

**Ölkə başçısının açıqlamasını "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli vurğulayıb ki, "İsgəndər M"lə bağlı yekun qərarın verilməsi həm ermənilər, həm də ruslarla bağlıdır:** "Azərbaycan tərəfi konkret olaraq qeyd edir ki, Ermənistanın bu məsələdə məsuliyyəti var. Çünki ölkəmiz Ermənistanın törətdiyi cinayətlərin üstünü açıb. O cümlədən, "İsgəndər M" raketinin atılması da müharibə cinayətlərindən biridir. Azərbaycan tərəfi çalışır ki, məsələ beynəlxalq məhkəməyə getsin. Bundan sonra Ermənistan dövlətinin cəzalandırılmasına nail olmaq və gələcəkdəki iddialarının qarşısını almaq mümkündür. Şübhəsiz ki, Qarabağda yaşanan olaylar da Azərbaycanın əlindəki "İsgəndər M"lə bağlı arqumentləri gücləndirir".

*Ə.Əlibəyli qeyd edib ki, cənab Prezident açıqlamasında hələ Rusiya üçün "qapını" tam bağlamadı:* "Ölkə başçısı Rusiyaya müəyyən dərəcədə imkan yaratdı ki, Azərbaycanı qane etməyən açıqlamalarını yenidən korrektə etsin. Çünki "İsgəndər-M" raketlərinin atəş məsafəsi 280 kilometdir, amma "İsgəndər M" atıblar və bu, raketin məsafəsi 500 kilometrdir. Ölkə başçısı 500 kilometr atılma məsələsini ona görə qeyd etdi ki, söhbət yalnız Şuşadan getmir. Görünür, Azərbaycanın başqa ərazilərinə də belə bir zərbə olub. Prezidentimiz Rusiyadan rəsmi cavab istəyir: Bu raketlər nə üçün verilib və haradan atılıb?



"Ölkə başçısı Rusiyaya müəyyən dərəcədə imkan yaratdı ki, Azərbaycanı qane etməyən açıqlamalarını yenidən korrektə etsin"

"İsgəndər M" raketinin atılması məhz müharibə dönəminə təsadüf etdiyindən hərbi cinayət işlənib. Şübhəsiz ki, burada əsas səbəb son günlər Rusiya sülhməramlılarının bizi Qarabağda narahat edən fəaliyyətlərinə yönəlikdir. Hələ ki, bu arqumentlər Azərbaycanın əlində çox güclü bir silahdır".

**Yeganə Bayramova**

---

Erməni ictimai fəal İşxan Vardyan ölkəsinin baş naziri Nikol Paşinyana qəzəbli müraciət ünvanlayıb. Sosial şəbəkələrdə paylaşılan video-görüntülərdə erməni fəal Paşinyandan Qarabağ məsələsində düzgün addım atmağı tələb edib. Vardyan ermənilərin Ağdam və Füzulidə törətdiyi vəhşilikləri də xatırladıb. Şəhərlərin tamamilə dağıdıldığını, məscidlərin təhqir olunduğunu bildirən erməni fəal bunu müharibə cinayətkarlarının törətdiyini və Paşinyanın onları mühakimə edib, Azərbaycana təhvil verməli olduğunu bildirib:

# Erməni fəal Azərbaycanın haqq səsinə qoşuldu

## *Paşinyan erməni xalqının qəhrəmanı ola bilər*

"Siz Ağdamı görmüsünüz? Bu nədir belə? Buna görə necə cavab vermək olar? Düzgün davranın, cənab Paşinyan, bizim Ermənistandan başqa vətənimiz yoxdur. Sizi Ağdamın, Füzulinin və ya Qarabağın baş naziri seçməyiblər, siz özünüz demişdiniz ki, siz Ermənistanın baş nazirisiniz, Qarabağ xalqının adından danışmağa haqqınız yoxdur".

Vardyan Nikol Paşinyanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa və sülh müqaviləsi imzalamağa çağırıb. Erməni fəal, həmçinin, hərbi əməliyyatların dayandırılmasından sonra əsir götürülmüş ermənilərin beynəlxalq hüquq baxımından terrorçu adlandırılması məsələsində də Azərbaycan tərəfinin haqlı olduğunu vurğulayıb.



### Baş nazir ölkəsinin əbədi qarantı olan müqavilə bağlamaq istəyir

### "Amma hələ Rusiyanın təzyiqindən qurtula bilmir"

**Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, erməni fəal İşxan Vardyanın Paşinyana ünvanladığı müraciətin iki mühüm istiqaməti var**. Partiya təmsilçisi qeyd edib ki, bunlardan birincisi və ən doğrusu Azərbaycanın haqlı tərəf olmağıdırsa, ikinci faktor müharibə qorxusudur: "30 ildə ermənilər həm özlərini, həm də beynəlxalq ictimaiyyəti aldadaraq "güclü" orduya sahib olmaları və Azərbaycanın sözdə deyil, əməldə Qarabağın işğalı ilə "barışması" yalanı ilə aldada bilmişdilər. İşxan Vardyan bu mövzuda fəallaşan tək tanınmış deyil. Daha öncə bir çox tanınmış erməni əsilli siyasətçilər, politoloqlar, incəsənət xadimləri Ermənistanın yanlış siyasəti davam etdirdiyi təqdirdə məhvə məhkum olacağını dəfələrlə deyiblər. Hətta tanınmış kinorejissor Karen Şahnazarov "Solovyov"un proqramında bu barədə geniş təhlillər vermişdi. Ermənistanın eks-prezidenti Levon Ter Petrosyan və baş nazir Nikol Paşinyan da real durumu çox yaxşı dərk edirlər. Ağlı başında olanların Ermənistanı böyük sülhə doğru aparmağa razı olduqları hiss olunur. Lakin "təkərə ağac soxan" qüvvələr həm daxildə, həm də xaricdə Azərbaycanla Ermənistan arasında böyük sülh müqaviləsinin imzalanmasına qarşı çıxırlar".



**Politoloq vurğulayıb ki, Paşinyan erməni xalqının qəhrəmanına çevrilə bilər:** "Baş nazirin erməni xalqının əbədi qarantı olan müqavilə bağlamaq niyyəti var. Amma hələ Rusiyanın təzyiqindən qurtula bilmir. Bu yaxınlarda Zəngəzurda ikinci rus bazasının yaradılması ilə bağlı çıxışı iki yol ayrıcında qalmış adam təsiri bağışlayır. Hesab edirəm, Azərbaycan bu istiqamətdə Paşinyana dəstək verə bilər. Biz onu inandırmalıyıq ki, Azərbaycan xalqının qonşularla dost və əmin-amanlıq şəraitində yaşamaq niyyəti ciddidir. Ən əsası isə Ermənistanın inkişafı yalnız bizimlə səmimi münasibətlər qurulduqdan sonra mümkündür. Ermənistandakı ağıllı insanlar da anlayırlar ki, güclənən türk dünyası ilə hərbi, iqtisadi və siyasi resursları olmadan ultimativ şəkildə davranmaq perspektivsiz siyasətdir. Məncə, Vardyan kimi fəalların bəyanatları davamlı olacaq. Müharibə və məğlubiyyət qorxusu erməniləri iddialarından əl çəkməyə məcbur edəcək".

**İsmayıl Qocayev**

# Təbliğatı sosial şəbəkələr vasitəsilə aparmalıyıq

## Elnur Eltürk: "Türkiyə-Azərbaycan diasporu fəaliyyətini daha da sıxlaşdırmalıdır"

**Hər il olduğu kimi, bu il də dünyanın müxtəlif ölkələrində yaşayan ermənilər qondarma 24 aprel erməni soyqırımına ciddi hazırlıq görürlər. Lobbi dairələrinin hazırlığından görünür ki, ermənilər reallıqda yaşanmamış bir hadisə ətrafında yenidən şou düzəltməyə çalışacaqlar.**



44 günlük müharibənin acı məğlubiyyətinin "əvəzini çıxmaq" üçün Azərbaycan və Türkiyəyə nifrətlərini, kinlərini qusacaqlar. Ermənilərin əsas qayəsi Amerika Prezidentinin "soyqırım" ifadəsini işlətməsinə nail olmaqdır. Co Bayden Administrasiyası da erməni diasporası tərəfindən təzyiqlərə məruz qalmaqdadır. Lakin Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, ABŞ Prezidenti "erməni soyqırımı" deyərsə, ikili münasibətlərə xələl gətirər. Nazir vurğulayıb ki, əgər beynəlxalq hüquqa hörməti varsa, Amerika Prezidenti "erməni soyqırımı" deməməlidir: "Co Bayden 24 apreldə hüquqi əsası olmayan qondarma erməni soyqırımı ifadəsini səsləndirərsə bu, Türkiyə-ABŞ münasibətlərinə xələl gətirə bilər. Amma biz cənab Baydenin nə deyib-deməməsindən narahat deyilik. Çünki onun sözləri tarixi həqiqətləri və erməni iddialarının əsassız olduğunu dəyişmir".

**Diaspor üzrə araşdırmaçı-ekspert, "Vikipediya" üzrə mütəxəssis Elnur Eltürk "Şərq"ə açıqlamasında bildirib ki, qondarma erməni soyqırımı məsələsi hansısa xarici qüvvələrin və dövlətlərin əlində oyun alətidir.** Ekspertin sözlərinə görə, əslində erməni məsələsi onların veclərinə deyil: "Son 150 ildə ermənilərdən alət kimi istifadə ediblər. Osmanlıya qarşı necə istifadə olunublarsa, bu gün də Türkiyəyə qarşı təzyiq aləti kimi istifadə olunurlar. İnanmıram ki, Bayden hakimiyyəti qondarma soyqırımı tanısın. Amerikada yaxşı dərk edirlər ki, tarixi əsası olmayan hadisəyə hüquqi qiymət verilə bilməz. Düşünürəm ki, Bayden özündən əvvəlki sələfləri kimi davranacaq. Ümumi sözlərdən o yana keçməyəcək. Baydenin qondarma soyqırımı tanıması Amerika-Türkiyə münasibətlərində uçuruma səbəb olar. Onsuz da iki ölkə arasında münasibətlər kövrəkdir. Üstəlik, Türkiyənin dünyada hərbi-siyasi və iqtisadi gücü artmaqdadır. Amma biz yenə də boş dayanmamalıyıq. Sistemli şəkildə fəaliyyətimizi davam etdirməliyik".

**E.Eltürk vurğulayıb ki, xüsusilə, Türkiyə-Azərbaycan diasporu fəaliyyətini daha da sıxlaşdırmalıdır:** "Vahid istiqamətdə fəaliyyəti gücləndirməli və birgə addımlar atılmalıdır. Xüsusilə, parlamentarilərlə, siyasi dairələrlə, media nümayəndələri ilə əlaqələr ən üst səviyyədə saxlanmalıdır. Pandemiya dövrü olduğu üçün kütləvi etirazların keçirilməsinə icazə verilmir. Etirazları sosial şəbəkələr vasitəsilə aparmalıyıq. Sosial şəbəkələrdə aparılan təbliğat effektiv olur. Siyasətçilər yazılan rəylərlə hesablaşırlar. Bəzən əleyhimizə yazılan statusları silməyə məcbur olurlar. Nüfuzlu xarici mətbuatda tarixi, elmi və akademik mövzuda məqalələrin çap olunması diqqətdə saxlanmalıdır. Xaricdə nüfuzlu qəzetlərin, elmi jurnalların siyasi-ictimai və akademik dairələrə təsir imkanları böyükdür".

**İsmayıl Qocayev**



# Hərbi Qənimətlər Parkı qorunmalıdır

## Ekspert təklif edib ki, burada muzey qaydaları tətbiq olunmalıdır

**"Bu gedişlə Hərbi Qənimətlər Parkında sərgilənən dağılmış hərbi texnikadan və manekenlərdən əsər-əlamət qalmayacaq. Neçə gündür sosial şəbəkələrdə parkda çəkilmiş görüntülərlə tanış oluram. Tankın üstünə dırmaşaraq şəkil və video yayanlar da gördüm, manekeni həqiqi erməni separatçısı bilib üzünü döyəcləyərək telefonuna çəkənin videosuna da rast gəldim".**

**Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib.**

Politoloq "Şərq"ə açıqlamasında mövcud vəziyyətlə bağlı təəssüfünü dilə gətirdi: "Hərbi Qənimətlər Parkı ona görə yaradıldı ki, gənc və gələcək nəsil əldə etdiyimiz qələbə və onun miqyası ilə tanış olsun. Ancaq əgər manekenlər sındırılacaqsa, onsuz da dağılmış tankın lüləsi qırılacaqsa, göstərməyə bir şey qalmayacaq. Hərbi Qənimətlər Parkı açıq havada muzeydir. Necə ki, qapalı muzeydə hansısa eksponata əl vurmaq, onun üzərinə çıxıb şəkil çəkdirmək qadağandır, eləcə də, Hərbi Qənimətlər Parkında eyni qaydalar tətbiq olunmalıdır".

**Sosioloq Əhməd Qəsəmoğlu "Şərq"ə açıqlamasında səslənən fikirlərə münasibət bildirdi:** "Belə hallar insan psixologiyası ilə bağlıdır. Xarici ölkələrdə olduğu kimi, bizdə bu cür yerlərə girişdə vətəndaşlara davranış qaydaları izah edilməli, müxtəlif yerlərə xatırladıcı, xəbərdaredici lövhələr vurulmalıdır. Qaydaları pozanlar isə cərimələnə bilərlər. Çünki onlar mövcud nizam-intizam qaydalarına zidd hərəkət etmiş olacaqlar".

**Kənan**

# Bakı sonuna qədər israrlı olacaq

## "İsgəndər M"lə bağlı Rusiyadan izahat tələb etmək Azərbaycanın haqqıdır

Söhbət dağıdıcı, kütləvi ölümə səbəb olan silahdan gedir

Prezident İlham Əliyev Şuşada aşkar edilən "İsgəndər-M" raketləriylə bağlı Rusiyaya verdiyi suallara tam cavab ala bilmədiyini deyib. Dövlət başçısı aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, Moskvanın "Rusiya tərəfi ballistik raketlərin buraxılmasını müəyyən etməyib" cavabı qanedici deyil və Azərbaycanın sorğusuna uyğun gəlmir.



Ölkə rəhbərinin sözlərinə görə, əsas sual "İsgəndər-M" raketlərinin Ermənistanın əlinə necə düşməsidir. Prezident diqqət çəkib ki, bunun iki yolu var: - ya qaçaqmalçılıq, ya da ki, beynəlxalq normaları, qaydaları pozmaq yolu ilə: "Ermənistan ordusunda ancaq "İsgəndər-E", yəni, eksport - ixrac variantı ola bilər. Onların arasında böyük fərq var. "İsgəndər-E" raketlərinin atəş məsafəsi 280 kilometrdir. "İsgəndər-M" raketləri isə daha uzaqmənzilli raketlərdir. Burada məsafə 500 kilometrdir. Yəni Ermənistan ordusunda "İsgəndər-M" raketləri ola bilməzdi". Dövlət başçısı vurğulayıb ki, bu raket sistemləri ya Ermənistana verilib, yaxud da ki, qanunsuz yollarla Rusiyadan oğurlanaraq çıxarılıb. Prezidentin sözlərinə görə, Rusiya mətbuatında "İsgəndər-M" raketləri ilə bağlı cəfəng versiyalar irəli sürülür və həmin versiyaları təsadüfi hesab etmir: "Biz bilirik bu raketlər nə vaxt və nə üçün atılıb. Ancaq bizə rəsmi cavab verilməlidir". Prezident bəyan edib ki, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri var. Rusiya sülhməramlı qüvvələri Azərbaycanın razılığı ilə bizim torpağımıza - Qarabağa, Xankəndiyə və ətraf yerlərə gətirilib: "Hesab edirdik ki, bu yeni əməkdaşlıq formatı əlaqələrimizi möhkəmləndirəcək. Ancaq "İsgəndər-M" raketlərinin Şuşa şəhərində tapılması və bu məsələ ilə bağlı bu günə qədər bizə tam cavabın verilməməsi, əlbəttə ki, Azərbaycan xalqında və Azərbaycan rəhbərliyində haqlı olaraq təəssüf və təəccüb hissi oyadır".

Prezidentin müsahibəsindən aydın olur ki, Rusiya "İsgəndər-M" raketi ilə bağlı suallarından yayınır. Bunun əvəzində media üzərindən Azərbaycan və Türkiyəyə qarşı "raket qalıqlarının Suriyadan gətirilərək, Şuşaya qoyulduğu versiyaları" üzərindən kampaniya aparılır. Dövlət başçısı bu versiyaların sistemli yanaşma olduğunu deməklə, kampaniyanın sifarişçisinin dolayı yolla Moskvanın olduğuna işarə vurur. Prezidentin isə sətiraltı mesajı isə xüsusi diqqət çəkir. Birincisi, ölkə rəhbəri "Rusiya sülhməramlı qüvvələri Azərbaycanın razılığı ilə bizim torpağımıza - Qarabağa, Xankəndiyə və ətraf yerlərə gətiriliblər" deməklə, Moskvaya "bu torpaqlar bizimdir, bizim razılığımızla gəlmisiniz, razılığımız olmasa çıxacaqsınız" mesajını ötürür. İkincisi, "üçtərəfli bəyanat Azərbaycan tərəfindən tam icra edilib" deməklə, Rusiyaya bəyanatın icra edilməyən bəndləri xatırladılır. Bu iki mesajın "İsgəndər-M" üzərindən verilməsi Azərbaycanın tələblərinin nələr olduğunu göstərir. Moskva isə çətin vəziyyətdə qalıb. Ya Ermənistana "İsgəndər-M" verdiyini, bununla beynəlxalq öhdəliyi pozduğunu deməli, ya raketin Gümrüdəki bazadan qaçaqmalçılıq yolu ilə Ermənistana aparıldığını etiraf etməlidir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan siyasi icmalçı Azər Niftiyev bildirib ki, "İsgəndər-M" raketinin Ermənistana verilməsi qanunsuz və beynəlxalq hüquqa ziddir.** Analitik xatırladıb ki, Rusiya Müdafiə Nazirliyi Ermənistana "İsgəndər-M" yox, "İsgəndər-E" raketi verdiyini bildirib. Lakin ANAMA-nın araşdırması zamanı "İsgəndər-M" raketlərinin qalıqları tapılıb: "Azərbaycan ən yüksək səviyyədə, ölkə rəhbəri səviyyəsində məsələyə aydınlıq gətirilməsini tələb edib. Lakin Rusiya hələ də bu suala tutarlı cavab verməyib. "İsgəndər-M" ballistik raket olaraq 500 kilometr məsafədən hədəfə zərbə endirir və nüvə başlığı daşıyır. Bu raketlərin satılması beynəlxalq hüquqa ziddir. Raketlərin Rusiya tərəfindən Ermənistana gizli yolla verilməsi, yaxud hansısa başqa yolla istifadə edilməsi kifayət qədər ciddi məsələdir. Ağır silah növü sayılan və hədəfi vurma məsafəsi 500 km-ə qədər olan "İsgəndər M" raketləri tam gücü ilə partlasaydı, müharibənin aparıldığı kiçik ərazidə ciddi fəlakətə səbəb ola bilərdi. Amma Rusiya bu məsələyə aydınlıq gətirmir ki, raketləri Ermənistana özləri verib, yoxsa gizli yollarla düşmən ölkəyə aparılıb".

*A.Niftiyevin sözlərinə görə, Rusiyanı fakt qarşısında qoymaq və bu məsələdə şimal qonşumuzdan izahat tələb etmək Azərbaycanın tam haqqıdır:* "Söhbət dağıdıcı, kütləvi ölümə səbəb olan və satışı qadağan edilmiş silahların verilməsindən gedir. Əgər Rusiya özünü Azərbaycanla tərəfdaş və müttəfiq sayırsa, bu silahları Ermənistana göndərməməliydi. Yox, əgər rəsmi Kremlin və ya Rusiya Müdafiə Nazirliyinin bundan xəbəri yoxdursa, o halda bununla bağlı açıqlama verməli və günahkar şəxsləri cəzalandırmalı idi. Baxmayaraq ki, Prezident İlham Əliyev artıq ikinci dəfədir, bununla bağlı izahat tələb edir, Rusiyanın hələ də susqun mövqe nümayiş etdirməsi anlaşılan deyil. Hesab edirəm ki, Azərbaycan tərəfi bu məsələdə sona qədər israrını davam etdirməli və Rusiyanı dolğun izahat verməyə təhrik və məcbur etməlidir".

**İsmayıl Qocayev**

# Elçibəy prezident mənzilini Nəsibə Zeynalovaya vermişdi...



## Ərəstun Oruclu ötən günləri xatırladı

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu feysbuk səhifəsində ölümsüz sənətkar, aktrisa Nəsibə Zeynalova və keçmiş prezident Əbülfəz Elçibəydən yazıb.**

*"Şərq"in məlumatına görə, Ərəstun bəy böyük şəxsiyyətlərlə bağlı xatirələrini bölüşərək bunları qeyd edib:* "Onları birlikdə 1999-cu ilin yayında Azərbaycan Xalq Cəbhəsinin Bakı Əyləncə Mərkəzində keçirilən 10 illik yubileyində görmüşdüm. Nəsibə xanım artıq çətinliklə yeriyirdi və oğlu Cahangir bəylə birlikdə gəlmişdi. Əbülfəz Elçibəy yaxınlaşıb onu qucaqladı və qarşısında çökərək söhbətləşdi.

Danışırdılar ki, Əbülfəz bəy öz prezident mənzilini Nəsibə xanıma verəndə demişdi ki, Azərbaycanda prezident hələ çox olacaq, amma Nəsibə Zeynalova bir də olmayacaq.

Nəsibə xanıma səhnəmizin qayınanası deyirlər, lakin o, böyük sənətkar həm də xalqımızın anası adına layiq idi. Səhnədə yüksək aktyorluğu ilə yanaşı həyatda da əsl Azərbaycan xanımı idi. Ağayana, ağır və eyni zamanda sadə bir milli qadın idi.

Yazım bir az gecikib, çünki Nəsibə xanımın aprelin 20-də doğum günü idi. Onu hələ çox nəsillər xatırlayacaq, ona baxacaqlar, güləcəklər, onun sənətində belə qabarıq görünən milli ruhundan qidalanacaqlar.

***Ruhun şad olsun, böyük sənətkar! İndi bu, tarixdir, özü də şanlı bir tarix.***

Çünki bizim təkcə böyük sənətkar qarşısında çökən rəhbərimiz yox, həm də lider qarşısında çökməyən sənətkarımız vardı.

Belə sənətkarlarımız bu gün də var. Həm böyük insan, həm də böyük sənətkar olan o azsaylı insanlarımızı qorumalıyıq. Qorumalıyıq ki, sabah sənəti və insanlığı qarşısında çökə biləcəyimiz kimisə tapa bilək".

**Samirə Ərəblinski**



## "Şərq TV"nin ilk efiri oldu

**Dünən "Şərq TV"-nin ilk efiri oldu. Aparıcı Elvin Basqallı sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynlə siyasi gündəmi müzakirə etdi.**

Həmçinin, Rusiyanın Qarabağla bağlı məkrli planı, oradakı sülhməramlıların fəaliyyəti və Şuşada qalıqları tapılan "İsgəndər-M" raketi ilə bağlı bəzi qaranlıq məqamlara işıq salındı.

*Qeyd edək ki, "Şərq TV" bundan sonra, həftə içi hər gün aktual mövzularla tamaşaçıların görüşünə gələcək.*

**Kənan**

## "Əhməd bəy Ağaoğlu Zəngəzurdan deputat seçilib"

### Tarixçi-alim Zəngəzurun tarixi Azərbaycan torpaqları olduğunu faktlarla izah etdi



**Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.**

"Biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq.

Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq"- deyə, ölkə başçısı bildirib.

Dövlət başçısı, həmçinin qeyd edib ki, bizim əsas rəqibimiz zamandır, çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir: "Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin.

Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır".

**BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu "Şərq"ə açıqlamasında Zəngəzurun tarixi Azərbaycan torpaqları olduğunu faktlarla izah etdi:** "Zəngəzur həm Ermənistan özünü müstəqil dövlət elan edəndə, həm də SSRİ dövründə mübahisəli ərazi olaraq qalıb. Lakin Azərbaycanın nəzarətində olub.

Böyük dövlət xadimi, mütəfəkkir Əhməd bəy Ağaoğlunun Zəngəzurdan deputat seçilməsi faktı həmin ərazinin tarixi Azərbaycan torpaqları olduğunu təsdiqləyir. Əhməd bəy o zamanlar öz çıxışlarında ermənilərin yerli əhaliyə qarşı qətliamlarını ifşa edirdi.

Sonradan böyük təzyiqlər nəticəsində Zəngəzur Ermənistana verildi. Amma həmin sənəddə Zəngəzur Ermənistanın tərkib hissəsi kimi tanınmırdı. İkinci bir tərəfdən, Zəngəzurdan Naxçıvanla Azərbaycanı birləşdirən dəmiryolu xəttinin bir hissəsi keçir.

Deməli, həmin bölgə əsla rəsmi İrəvanın nəzarəti atında ola bilməz. Dövlət başçısının qaldırdığı məsələ kifayət qədər aktualdır və bunun tarixi kökləri var".

**Kənan**

# Azərbaycan Avrasiya İttifaqının üstündən birdəfəlik xətt çəkdi

### Türkiyə və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatı bundan sonra əsas yolumuz olacaq

"Rusiyaya qarşı sanksiyalar və siyasi təzyiqlər artdıqca Moskva MDB məkanında öz siyasi nüfuzunu möhkəmləndirməyə və Avrasiya İttifaqına yeni üzvlərin cəlb edilməsinə çalışır. Artıq Kreml dəyişən regional şərtlər fonunda Avrasiya İttifaqını yeni dizaynda tərtib etmək üçün yeni bir siyasi plana malikdir.






Bunu Avrasiya İttifaqı üzv dövlətlərinin bu ayın sonunda Kazanda keçiriləcək toplantısında elan edəcək. Gömrük İttifaqının (Avrasiya İttifaqının) bu toplantısına Azərbaycanın müşahidəçi kimi qatılması gözlənilir". Bu sözləri MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib.

Bu barədə daha ətraflı "Şərq"ə danışan ekspertin fikrincə, Moskva Qərb qarşısında təklənib: "Ukrayna böhranı ilə əlaqədar olaraq ABŞ və Qərbin Moskvaya qarşı hücum diplomatiyası, həmçinin üzərinə getməsi bunun müqabilində Rusiyanın bu məsələlərdə bir müttəfiqinin olmaması Kremlin ötən illər ərzində apardığı siyasətin iflasıdır. Çünki qonşularına qarşı aqressiv və təzyiq siyasəti Kremllə məsafəli davranmalarına gətirib çıxarıb. Prezident Vladimir Putin Avrasiya İttifaqının inkişafı və üzv ölkələrə qarşı yeni bir siyasi baxış formalaşdırmaq üçün bir mexanizm həyata keçirəcək. Təbii ki, bu üzv ölkələrə qarşı təzyiq mexanizmi kimi reallaşmasına rəğmən, müəyyən dərəcədə əlverişli iqtisadi şərtləri də özündə ehtiva edəcək. Belə bir planın səmərə verməsi gözlənilmir. Çünki əsas siyasi strategiya "neoSSRİ" yaratmaqdır. Donbassda Qərb Rusiyanın qarşısından çəkiləcəksə, Rusiyanın aktiv şəkildə MDB məkanına nüfuz edəcəyi mümkündür. Ümumiyyətlə, Kreml rəhbərliyinin yumşaq və əməkdaşlıq gücündən deyil, təzyiq və şantajdan istifadə etməsi, qarşılıqlı əməkdaşlıq deyil, asılılıq siyasətinə üstünlük verməsi bu gün Rusiyanın Qərbin qarşısında tək qalmasına gətirib çıxarıb".

**M.Əsədullazadə şimal qonşumuzun planlarından da danışdı:** "Azərbaycan Avrasiya İttifaqının üzvü deyil. Rusiya çalışır ki, Azərbaycanı bu təşkilata üzv etsin. Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında problemin aradan qalxması Moskvanı hərəkətə gətirib. Rusiya Azərbaycanı öz orbitində olan təşkilatlara üzv etməklə ittifaq daxilində yeni bir mərhələyə keçməyə çalışır. Azərbaycanın bu birliyə daxil olması gözlənilmir. Azərbaycanın Türkiyə ilə birgə fəaliyyəti, Mərkəzi Asiya ölkələri ilə başladılan əməkdaşlıq formatı Avrasiya İttifaqının cəlbediciliyinin üstündən xətt çəkir.

Məhz Belarus Prezidenti Aleksandr Lukaşenkonun Bakıya səfərində əsas müzakirə predmeti Azərbaycanın Aİ üzvlüyünə cəlb edilməsi üçün Moskvanın istəklərini müzakirə etmək olub. Azərbaycan Tükiyənin başlatdığı "Türksoylu dövlətlərlə" əməkdaşlıqda yer almaqla öz təhlükəsizliyini daha da möhkəmləndirəcək. Rusiyanın şantaj və təzyiqlərinə baxmayaraq, Ankara-Bakı birgə platforması, Mərkəzi Asiyanı əhatə etməklə, yeni bir regional nizam formalaşdıracaq. Ona görə də Azərbaycanın Putinin layihələrində yer alması maraqlarımıza ziddir, təhlükəsizliyimizə təhdiddir.

Azərbaycanın Türkiyə ilə birgə ortaq fəaliyyəti, Qərbin Rusiyaya təzyiqləri Avrasiya İttifaqının genişləndirilməsinin qarşısını ala bilər".

**Kənan Novruzov**

# Hava istidir, dözmək olmur...



## Açıq havada maska taxmaq məcburiyyəti götürülməlidir

**“Operativ Qərargah açıq havada maska taxmağı ləğv etsə, nə polislə vətəndaş arasında gərginlik yaranar, nə də vətəndaşlarımız narazı qalar”**

**Bakıda küçədə maska taxmayan şəxslə polis arasında gərginlik yaşanıb. Özünü xarici vətəndaş kimi təqdim edən şəxs ingilis dilində qışqırmağa başlayıb.**

"İ can not breathe" ("Nəfəs ala bilmirəm") sözlərini dilə gətirən adam Gəncə sakini imiş və cərimələnmək istəmədiyi üçün bu yola əl atıb.

Baş verənlər sosial şəbəkədə geniş müzakirə mövzusu olub. İstifadəçilərin böyük əksəriyyəti həmin şəxsə haqq qazandırıb. Məlumdur ki, son günlər açıq havada maska taxılmasına dair geniş narazılıqlar var. Hətta vəziyyət o həddə gəlib çatıb ki, vətəndaşlar öz milliyyətini danaraq, xarici biri olduqlarını söyləyirlər.

**Hadisəni "Şərq"ə dəyərləndirən millət vəkili Razi Nurullayev bildirib ki, hər kəs qanuna tabe olmalıdır.**

"Operativ Qərargahın qəbul etdiyi qərara görə, küçədə maskadan istifadə edilməlidir. Kimsə bu qaydadan kənara çıxırsa, təbii ki, cəzalandırılacaq. Baş verənlərdə polisi günahlandırmaq düzgün olmazdı. Çünki polis tapşırıq alır ki, qanuna tabe olmayanları qanuna dəvət etsin".

*Artıq havaların isindiyinə diqqət çəkən deputat vurğulayıb ki, küçədə az adam olan yerdə maska istifadəsi aradan qaldırılsa, çox yaxşı olar:* "Kütləvi olan ərazilərdə, məsələn "Tarqovi" adlanan yerdə maska taxılmasına nəzarət edilsin. Amma insanların az olduğu məkanda, açıq havada, parklarda, boş küçələrdə maska taxmaq məcburiyyəti aradan götürülməlidir. Həqiqətən də havalar çox istidir, insanlar dözə bilmir. Havada yoluxma riski o qədər də böyük deyil. Operativ Qərargah açıq havada maska taxmağı ləğv etsə, nə polislə vətəndaş arasında gərginlik yaranar, nə də vətəndaşlarımız arasında xoşagəlməz hallar yaşanır. Bu zaman insanların əksəriyyəti polisi günahlandırmağa çalışır. Lakin onlar da öz vəzifələrini yerinə yetirirlər".

**Yeganə Bayramova**

## Daha 2 075 nəfər koronavirusa yoluxub, 32 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 075 yeni yoluxma faktı qeydə alınıb, 2 480 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 305 933 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 269 965 nəfər müalicə olunaraq sağalıb, 4 235 nəfər vəfat edib, aktiv xəstə sayı 31 733 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 141 335, ötən müddət ərzində isə ümumilikdə 12 679 test aparılıb.

## Bakıda yanğın baş verib

### Hadisə sökülmə ərəfəsində olan evlərdə qeydə alınıb

**Bakının Yasamal rayonunda yanğın baş verib.**

APA-nın məlumatına görə, hadisə İbrahim Əbilov küçəsindəki (keçmiş "Sovetski") sökülmə ərəfəsində olan evlərdə qeydə alınıb.

Yanğın bir-birinə bitişik bir neçə evi əhatə edib. Yanğına ilkin müdaxiləni Yasamal Rayon Polis İdarəsinin 27-ci Polis Bölməsinin əməkdaşları edib. Hadisə yerinə FHN-din 4 yanğınsöndürmə xidmətinin texnikası cəlb edilib.

FHN-in hadisə yerində çalışan əməkdaşlarının verdiyi məlumata görə, yanğın söndürülüb və hazırda soyutma işləri aparılır.

# Kirayə mənzil bazarı çöküb

Bakıda mart ayında kirayə mənzil bazarında qiymətlərdə ucuzlaşma qeydə alınıb.

Bu barədə "MBA Group" konsaltinq şirkətinin direktoru, əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov Trend-ə açıqlamasında bildirib. Ekspert qeyd edib ki, mart ayında Bakıda kirayə mənzil qiymətləri 6.6 faiz ucuzlaşıb. Ucuzlaşmanın səbəbi pandemiya ilə əlaqədar olaraq kirayə mənzillərə tələbatın azalmasıdır.

*İqtisadçı, torpaq bazarındakı canlanmanın da əsas səbəbinin pandemiya olduğunu deyib*



Məlumdur ki, pandemiya ilə əlaqədar olaraq ali təhsil müəssisələrinin işləməməsi, xarici ölkələrdən turistlərin gəlməməsi nəticəsində kirayə mənzillərə tələbat xeyli azalıb. Torpaq bazarında isə əksinə, mart ayında Bakıda torpaq bazarında orta qiymət 20719 manat/sot olub. Qiymətlərdə 4,42 faiz bahalaşma qeydə alınıb.

Ekspert qeyd edib ki, qiymət bahalaşmasının səbəblərindən biri mövsümlə əlaqədar torpaq sahələrinə tələbatın artmasıdır.

Kirayə mənzil və torpaq bazarında qiymət dəyişmələri ilə bağlı iqtisadçının rəyini verməzdən öncə, maraq doğuran hadisəyə diqqət çəkəcəyik.

Bir müddət əvvəl İstanbulun təbii gözəllikləri ilə məşhur Şile bölgəsinin bələdiyyə başqanı yerli mediaya açıqlamasında "böyük köç" dalğası ilə üz-üzə qaldıqlarını demişdi. Bələdiyyə başqanı bildirmişdi ki, şəhər sakinləri evlərini yük maşınlarına, konteynerlərə yükləyərək Şilenin boş ərazilərinə köçür, qanunsuz məskunlaşma aparırlar. Səbəb də koronavirus qorxusu, pandemiyadan qaçışdır. Yəni şəhərdəki sıxlıqda virusa yoluxma riskinin daha yüksək olduğunu anlayanlar təhlükədən yaxa qurtarmağa çalışır və çarəni boş ərazilərdə məskunlaşmaqda, təbiət qoynuna qaçmaqda görür. Bələdiyyə başqanı qanunsuz yerləşmələrin qarşısını alacaqlarını da demişdi, amma görünən budur ki, pandemiya vahiməsi insanları təbiət qoynuna, daha az təhlükəsiz hesab edilən fərdi evlərə istiqamətləndirir. Bakıda kirayə mənzil və torpaq bazarındakı qiymət fərqi də insanların həyət evlərinə, fərdi tikililərə daha çox üstünlük verməsi ilə bağlıdır.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında mənzil və torpaq bazarında qiymətlər arasındakı fərqin başlıca səbəbinin pandemiya olduğunu bildirdi:**

- Bakıda kirayə mənzil bazarında heç vaxt indiki vəziyyət yaşanmayıb. Mövsümlə əlaqədar torpaq bazarında qiymət dəyişikliyi həmişə olurdu, lakin kirayə mənzil bazarında yox. Çünki bu məsələ mövcud amillərlə tənzimlənirdi. Deyək ki, payız-qış aylarında paytaxta təhsil almağa gələnlər, eyni zamanda xarici ölkələrdən gələn işçilər, tələbələr hesabına, yay aylarında isə turizm sektorunun hesabına. Belə deyim ki, paytaxtda kirayə mənzillərə hər zaman ehtiyac vardı və bu da kirayə mənzil bazarında qiymətləri dayanıqlı edirdi. Fərq, bəlkə yay aylarında yaranardı, amma o da çox cüzi. Amma hazırda biz qiymətlərdə böyük fərqi görürük. Əlbəttə ki, başlıca səbəb pandemiyadır. Dərslər onlayn sistemə keçib. Pandemiya, yoluxma təhlükəsi nəzərə alınaraq kəndşəhər yerdəyişmələri demək olar, aparılmır. Ölkələrə giriş-çıxış ötən ildən məhdudlaşıb, aviareyslər təxirə salınıb. Bu, bütün dünyada belədir. Ona görə də kirayə mənzil bazarında vəziyyət acınacaqlıdır. Təklif tələbi üstələyir. Qiymətlərdəki enmələr də bununla bağlıdır.

**İqtisadçı, torpaq bazarındakı canlanmanın da əsas səbəbinin pandemiya olduğunu dedi:**

- Mənim tanıdığım, ətrafımda olanlar, dostlarım arasında bağ evinə sahib olmaq niyyəti ilə torpaq almaq istəyənlər çoxdur. Alanlar da var. Bu saat elə adam var ki, şəhərdəki 2, ya 3 mənzilindən birini satır, əvəzində torpaq sahəsi, bağ evi alır. Hazırda insanlar üçün əsas məsələ rahat şəraitdə yaşamaq, pandemiyanı az itki ilə başa vurmaqdır. Təbii olaraq insanlar düşünür ki, şəhərdə sıxlıqdır, yoluxma təhlükəsi böyükdür, hərəkət məhdudiyyəti də var, əvvəlki illərdə olduğu kimi, hara istəsələr gedə bilməyəcəklər, lap regionlarda da istirahət risklidir, ona görə də ən rahatı bağ evinə sahib olmaqdır. Yaxud da fərdi ev tikdirmək fikrinə düşürlər, istəyirlər öz həyətləri, bağçaları olsun. Torpaq bazarındakı qiymət artımı da bununla əlaqədardır. Çünki torpaq sahələrinə tələbat artıb. Amma sizə deyim ki, bu axının geri dönüşü də olacaq. Post-pandemiya dövründə biz prosesin əksini müşahidə edəcəyik. Post-pandemiya dövründə bazara daha çox torpaq sahələri çıxarılacaq. Pandemiya dövründə torpaq sahəsi əldə edənlər post-pandemiya dövründə onları satışa çıxaracaq.

**Məlahət Rzayeva**

# Ukrayna böhranı uzun çəkəcək

## *ABŞ Rusiyanı maddi və mənəvi cəhətdən yormaq istəyir*



Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya Prezidenti Vladimir Putini Donbassda görüşə dəvət edib. Zelenski bu təklifi "Telegramda" çıxışı zamanı səsləndirib.

O bildirib ki, atəşkəsin bərpası Normandiya Dördlüyü və təhlükəsizlik alt qrupunun iclaslarında müzakirə edilib: "Orada vəziyyəti mümkün qədər dəqiq görmək və anlamaq üçün təmas xəttinə gəlmək təklifi də var idi. Hər ay ora gedirəm. Cənab Putin! Daha da irəli getməyə və sizi müharibə olan Ukrayna Donbassının hər yerində görüşməyə dəvət edirəm".

**Mövzuya münasibət bildirən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında qeyd edib ki, Ukrayna ilə Rusiya arasındakı gərginlik demək olar ki, özünün pik həddinə çatıb.** A.Qasımov vurğulayıb ki, Rusiya Qara dənizə hərbi gəmilər gətirib, Kerç boğazını bağlayıb və Azov dənizində hərbi təlimlərə başlayıb: "Ukraynanın Belarus, Rusiya sərhəddinə 100 mindən çox hərbi birliklər yığıb. Bu ilk növbədə onu göstərir ki, Rusiya bu qüvvə ilə öz hərbi gücünü hamıya göstərmək istəyir. Məsələ ondadır ki, Rusiya Prezidenti Vladimir Putin Ukrayna Prezidenti Zelenskini ciddi fiqur qəbul etmir. O, hesab edir ki, Ukraynanın arxasında Amerika dayanır və danışıqları da onlarla aparmaq lazımdır. Putinlə Baydenin görüşü deyildiyi kimi, razılaşdırılıb. Və tezliklə iqlim dəyişikliyi ilə əlaqəli konfrans da baş tutmalıdır. Bu baxımdan, hesab etmək olar ki, bu görüşün nəticəsi hadisələrin sonrakı gedişinə təsir edəcək".

*BAXCP sədrinin müşaviri əlavə edib ki, amma Putin-Zelenski görüşünün olacağına və Putinin bunu qəbul edəcəyinə ehtimal vermir:* "Məsələ çox mürəkkəbdir və arxa planda olan qüvvələrin prosesləri hansı istiqamətə yönəltmək istəyi burda böyük rol oynayacaq. Amerikanın Rusiya ilə Ukrayna məsələsinə görə qarşı-qarşıya gəlmək istəyi yoxdur. Amerika Rusiyanı maddi və mənəvi baxımdan yormaq istəyir. Amerika dünyada oynadığı supergüc roluna görə dünyada baş verən bu kimi böhranlarda özünü problemlərin həllində həlledici rol oynamaqda vəzifəli hesab edir. Odur ki, burda da çalışır ki, Rusiyanı cilovlasın. Hesab etmək olar ki, bu gərginlik hələ bir müddət də qalacaq. Burdakı hadisələrin gedişindəki senarilər müxtəlifdir. Lakin tək nəticənin eyni olacağı mütləqdir. Müharibə olacağı təqdirdə nə Rusiya, nə Ukrayna, nə də dünya bundan qazanacaq. Xüsusən də, region ölkələri üçün dağıdıcı nəticələrə səbəb olacaq. Ümid edirik ki, hadisələr mənfi istiqamətə getməyəcək, rus və ukrayna xalqları arasında bu mübarizədə ağıl qalib gələcək".

**Aynurə Pənahqızı**

## ABŞ polisi növbəti qətl törədib

### Qaradərililərin etirazları böyüyür



**ABŞ polisinin irqçi yanaşmaları 2020-ci ilin mayında Corc Floydun öldürülməsindən sonra dünya ictimaiyyətinin gündəmindədir.**

Bu tarixdən bəri xüsusilə qaradərililərə qarşı ayrı-seçkilik və təcavüzkar davranışları ortaya çıxan ABŞ polisi növbəti qətl törədib.

*"Şərq" "Haberler.com"a istinadən bildirir ki, polis Ohio əyalətində 16 yaşlı qaradərili amerikalı Makiyah Bryantı öldürüb.*

Əyalətdə böyük mübahisə olduğuna dair məlumat alan polis qrupu bıçaqlı hücum olduğu hadisə yerinə gedib. Mübahisənin baş verdiyi məkana çatan polislər hadisə yerindəki 16 yaşlı yeniyetməyə 4 dəfə atəş açıb.

Şahidlərin ifadəsinə görə, polisə hücuma cəhd etməyən Bryant vurulduğu zaman ağır yaralanıb. Amerika mətbuatına danışan Bryantın xalası polisin birbaşa xəbərdarlıq etmədən atəş etdiyini söyləyib.

Yaşanan cinayət ictimai mediada böyük təpkiyə səbəb olub. Vətəndaşlar küçələrə tökülərək etirazlara başlayıb.

**Yeganə Bayramova**

## Çernoqoriya sərhədləri açır

### Bu ölkədə koronavirus testi də ləğv edilib



**Çernoqoriya rusiyalı turistlərin ölkəyə girişi üçün tətbiq olunan bütün məhdudiyyətləri, o cümlədən koronavirus testini ləğv edib.**

"Şərq" TASS-a istinadən bildirir ki, bu barədə Çernoqoriyanın Maliyyə naziri Miloiko Spaiç özünün "Twitter" hesabında yazıb. O, turizm mövsümü ilə əlaqədar olaraq vətəndaşların bir çox ölkələrə - Rusiyaya, Belarusa, Ukraynaya və Şimali Makedoniyaya sərbəst səfər edə biləcəklərindən məmnunluğunu dilə gətirib.

*Qeyd edək ki, Çernoqoriya İqtisadi İnkişaf Nazirliyinin Turizm üzrə Dövlət Katibi İvana Djuroviç mart ayında verdiyi açıqlamada xarici səfərlər üçün koronavirus testinin və peyvənd sertifikanın zəruri olduğunu söyləmişdi.*

**Kənan**

## Plan "Ağ Ev"də cızılıb

### Rusiyaya qarşı daha ağır qərarlar gözlənilir



**"Ağ Ev administrasiyasının Vaşinqtondakı beyin mərkəzlərinin hazırladığı xüsusi plan əsasında Rusiyaya qarşı addımlar atdığı hiss olunur".**

Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu deyib. O "Şərq"ə açıqlamasında iki supergüc arasında münasibətlərin gərgin qalmasını təmin edən faktorları sadaladı: "Vaşinqton Rusiyanın Ukrayna ilə sərhəddə gərginliyi artırmasına cavab olaraq Qara dənizə iki hərbi gəmisini göndərəcəyini açıqladı. Rusiya buna cavab olaraq Qara dənizdə hərbi gəmilərinin sayını artırdı. Bundan sonra ABŞ Prezidenti Co Bayden rusiyalı həmkarı Vladimir Putinə zəng edərək üçüncü ölkənin birində görüşməyi təklif etdi. Eyni gündə ABŞ-ın iki hərbi gəmisi Qara dənizə boğazlardan daxil olmaq üçün Türkiyəyə müraciətini geri çəkdi və gözləmə mövqeyinə keçdi. Kreml hazırkı dövrdə prezidentlərin görüşünə ehtiyac olmadığını açıqladıqdan sonra ABŞ Rusiyaya qarşı növbəti sanksiyalarını bəyan etdi. Qəbul olunan qərara əsasən 10 Rusiya diplomatı ABŞ-dan qovulur. Bundan əlavə ABŞ seçkilərinə müdaxilə etdiyi üçün 32 Rusiya vətəndaşı və təşkilatına qarşı sanksiya tətbiq olunur".

**Kənan**

# Ukraynanın NATO-ya olan ümidi puç olub

## *Zelenski münaqişəni dinc yolla həll etmək istəyir*



Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya Prezidenti Vladimir Putini Donbassda görüşə dəvət edib. Zelenski bu təklifi "Telegramda" çıxışı zamanı səsləndirib.

O bildirib ki, atəşkəsin bərpası "Normandiya dördlüyü" və təhlükəsizlik alt qrupunun iclaslarında müzakirə edilib: "Orada vəziyyəti mümkün qədər dəqiq görmək və anlamaq üçün təmas xəttinə gəlmək təklifi də var idi. Hər ay ora gedirəm. Cənab Putin, daha da irəli getməyə və sizi müharibə olan Ukrayna Donbassının hər yerində görüşməyə dəvət edirəm".

Ukrayna lideri əlavə edib ki, Kiyev Ukrayna sərhədləri yaxınlığında Rusiya qoşunlarının hərəkətindən narahatdır: "Ukrayna müharibə istəmir, lakin buna hazırdır. Bizim prinsipimiz sadədir: Ukrayna birinci olaraq müharibəyə başlamaz, amma sonuncu addım atar".

**Siyasi analitik Rusif Məmmədsoy "Şərq"ə açıqlamasında tərəflər arasındakı münasibətlərin inkişafını belə şərh etdi:** "Ukrayna Prezidenti Zelenski NATO-ya, o cümlədən, həmin qurumun regiondakı təmsilçisi olan Türkiyəyə arxalanır. Əlbəttə, qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlunun da bəyanatlarından məlum olduğu kimi, rəsmi Ankara Kiyevi tək qoymayacaq. Əslində bu mübarizə Rusiyaya qarşı yox, separatizm əleyhinədir. Eyni zamanda Ukrayna lideri yaxşı başa düşür ki, toqquşma onun ziyanına olacaq. Çünki NATO 2014-cü ildə olduğu kimi, yenə də Ukraynanı tək qoyacaq. Hətta o vaxt NATO-nun bəzi aparıcı üzvləri Rusiya ilə gərginliyin onlara lazım olmadığını açıq-aşkar demişdi. Beləliklə, Ukraynanın NATO-ya olan ümidi qırılıb. Zelenski problemi qarşılıqlı güzəşt yolu ilə həll etməyin mümkünlüyünü və əlverişliliyini anlayır. Hərçənd, bu da ağlabatan deyil. Çünki Rusiya ya inanmaq olmaz. Kremllə hansısa razılıq su üzərində yazı yazmağa bənzəyir".

*R.Məmmədsoy, həmçinin, potensial müharibə ehtimalından da danışdı:* "Ukrayna separatçılarla mübarizəyə başlayıbsa, prosesi sona çatdırmalıdır. Amma necə? Bax, əsas məsələ budur. Savaşı nə Ukrayna istəyir, nə Rusiya. Amma Kremlin sərhədə 120 minlik qoşun yığması "biz hər şeyə hazırıq" ritorikasıdır. Bildiyiniz kimi, ABŞ öz vətəndaşlarını sözügedən ölkələrə səfərdən çəkindirir. Qarabağ müharibəsi ərəfəsində də belə olmuşdu. Bu çağırışı müharibənin başlanacağına siqnal kimi qəbul etmək mümkündür. Halbuki, Zelenskinin son açıqlaması göstərir ki, o, qarşılıqlı kompromislər vasitəsilə münaqişəni dinc yolla həll etmək niyyətindədir".

**Kənan**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Azərbaycanda çevik informasiya siyasəti qurulur

## Artıq beynəlxalq platformalara çıxışımız asanlaşacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məlum olduğu kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin Bakıda 3-cü toplantısı keçirilib. Toplantıda türkdilli ölkələrdə baş verən hadisələr barədə yerli və beynəlxalq səviyyədə məlumatlandırmanın artırılması istiqamətində birgə fəaliyyətin gücləndirilməsi, informasiya və media sahəsində 2021-2022-ci illəri əhatə edən Fəaliyyət Planı, türkdilli dövlətlərin tarix və mədəniyyətinə aid bədii və sənədli filmlərin çəkilişi, media ekspertləri üçün təlim kurslarının və mübadilə proqramlarının reallaşdırılması kimi məsələlər müzakirə olunub.**

Prezidentin köməkçisi Hikmət Hacıyev Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirləri və yüksək vəzifəli rəsmilərinin 3-cü toplantısından sonra jurnalistlərin suallarını cavablandırarkən deyib ki, Türk Şurası çərçivəsində Media Koordinasiya Komitəsi yaradılmalıdır: "Türk Şurası çərçivəsində media sahəsində əməkdaşlığın daha da sistemləşdirilməsinin tərəfdarıyıq. Bu günə kimi yaxşı təşəbbüslər olub. Lakin gəldiyimiz qənaətlərdən biri odur ki, təşkilat çərçivəsində Media Koordinasiya Komitəsi yaradılmalıdır. Necə ki, digər sahələrdə davamlı müvafiq komitələr çərçivəsində iş aparılır, bu istiqamətdə də işlər görülməlidir".

Bir çox media ekspertləri hesab edir ki, türk ölkələri arasında media sahəsində belə bir komitənin yaradılması Türk dövlətlərinin hər biri üçün çox faydalı olacaq. Bu, həmçinin, türk dövlətləri və xalqları arasında informasiya sahəsində koordinasiya yaradacaq. Ümumiyyətlə, media ekspertlərinin fikrincə, Türk dövlətləri arasında koordinasiyanın olması olduqca vacibdir. Çünki 44 günlük Vətən savaşı günlərində türk dövlətləri ilə koordinasiyanın yoxluğu özünü açıq şəkildə göstərdi. Buna görə də Azərbaycan və digər türk dövlətlərinin qarşılıqlı olaraq informasiya sahəsində əməkdaşlıq etmələri məqsədəuyğundur. Ümumiyyətlə, media mənsubları hesab edir ki, Türk dövlətlərinin nüfuzunun artırılması, bölgədə sözünün keçməsi, ətraf təzyiqlərin qarşısında tab gətirməsi üçün belə bir birliyin yaradılması olduqca vacibdir. Həm də bu, türk dövlətlərinin biri-birini anlaması üçün də əhəmiyyətlidir. Bundan başqa, komitənin yaradılmasının əsas özəlliklərindən biri media nümayəndələri istər Azərbaycan, istərsə də türk dünyası dövlətləri haqqında həqiqətləri dünyaya daha rahat, çevik və doğru çatdıra biləcəklər. Təbii ki, bu gün belə bir layihənin reallaşması türk xalqlarının biri-birinə yaxınlaşmasından xəbər verir. Ümid edirik ki, bu yaxınlaşma davam edəcək və gələcəkdə də bu istiqamətdə mühüm addımlar atılacaq. Bəs, belə bir Koordinasiya Komitəsinin yaradılmasının nə kimi müsbət effekti olacaq?

"Türk ölkələrinin Media Koordinasiya Komitəsinin yaradılması, ölkədə informasiya işinin təşkilinə və informasiya təhlükəsizliyinə çox ciddi töhfəsi olacaq"

**Sualımızı cavablandıran Güney Azərbaycan Televiziyasının (Günaz.TV) əməkdaşı Elman Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, son illər türk dövlətləri və topluluqları arasında inteqrasiya sürətlənib. E.Cəfərli qeyd edib ki, Türk Şurası çərçivəsində əməkdaşlıq daha da genişlənib:** "44 günlük Vətən savaşından sonra Türkiyənin türk dövlət və topluluqları üçün önəmi artıb. Ona görə də Türk dövlətləri Türk Şurası çərçivəsində əməkdaşlığa diqqəti artırıblar. 44 günlük Qarabağ savaşı göstərdi ki, informasiya savaşı çox önəmlidir. Ötən ilin iyul hadisələrindən sonra və 44 günlük savaş boyunca Türkiyə mediasının dəstəyini hiss etdik. Ancaq təəssüf ki, Birinci Qarabağ savaşında belə olmamışdı. Sanki türk cəmiyyəti bizi, biz də onları yaxşı tanımırdıq. 30 illik zaman öz sözünü dedi. Türk xalqları arasında inteqrasiya dərinləşdi. Hesab edirəm ki, indi eyni proses digər türk dövlətləri arasında da getməlidir".

**E.Cəfərli diqqətə çatdırıb ki, Türk Şurası çərçivəsində Media Koordinasiya Komitəsinin yaradılması ideyası çox faydalıdır:** "Təklif edərdim ki, Türk Şurası dövlətləri arasında media əlaqələri daha sıx inkişaf etdirilsin. Türkdilli dövlətlərin, xüsusilə Mərkəz Asiya ölkələrinin televiziyaları Azərbaycanda yayınlanmalıdır. Bakıda Türk dövlətlərinin istehsalı olan filmlərin festivalı keçirilməlidir. Bir sözlə, dil maneəsi aradan qaldırılmalıdır. Həmçinin, jurnalist təşkilatları arasında əlaqələr intensivləşməlidir. Münasibətlər o səviyyəyə çatmalıdır ki, Mərkəzi Asiya mediası da türk mətbuatı kimi ermənilərlə informasiya savaşında bizə mənəvi dəstək versin".

**"Türküstan" qəzeti və saytının baş redaktoru Aqil Camal "Şərq"ə açıqlamasında vurğulayıb ki, media sahəsində əməkdaşlıq əvvəlcə Azərbaycanla Türkiyə arasında nəzərdə tutulurdu. O əlavə edib ki, hətta bununla bağlı rəsmi razılaşmalar da var:** "Amma sevindirici haldır ki, bu əməkdaşlığın əhatə dairəsi genişləndi. Bu da Türk dövlətləri arasında dövlət başçıları səviyyəsində əməkdaşlığın güclənməsindən irəli gəlir. Düzdü, onların media sahəsində əməkdaşlıqları son 10 ildə aktuallaşıb. 2012-ci ildə Ankarada, sonrakı illərdə Azərbaycanda, Qazaxıstanda Türk ölkələri Media Forumları keçirildi. Hətta hər ölkədən təmsilçilərin olduğu icra qurumu da yaradılmışdı. Amma bu gün görünən odur ki, nə həmin təşəbbüslər, nə də yaradılmış icra qurumu uğurlu fəaliyyət göstərib. Bu baxımdan, məsələnin yenidən gündəmə gətirilməsinə zərurət yarandı. Hazırda ölkələrin müvafiq dövlət qurumları ilə yanaşı, ictimai sektor, media camiəsi də bu prosesə maraq göstərir. Təbii ki, bu hal sevindiricidir. Bizim 2012-ci ildə təsis etdiyimiz və bir neçə tədbirini keçirdiyimiz Türk Dünyası Media Platforması yeni şəraitdə öz fəaliyyətini qurmağı hədəfləyir".

*A.Camal hesab edir ki, informasiya savaşının hədsiz aktuallaşdığı hazırkı dövrdə qarşılıqlı media fəaliyyəti olduqca vacibdir:* "Həyatın bütün sahələrində olduğu kimi, media sahəsində də dərin işbirliyi və inteqrasiyaya getmək günümüzün tələbidir. Bu müstəvidə sıraların genişlənməsi hər bir dövlətin maraqlarına cavab verəcək. Bu məsələdə sadəcə, bir mühüm məqam var. Ortaq xəbər siyasəti həyata keçirərkən ölkələr yalnız öz maraqlarını və problemlərini qabartmamalıdır. Bu gün media dəstəyinə ehtiyacı olan türk toplumları var ki, onların da səsi olmalıyıq. Bu baxımdan, medianın sərbəstliyi, inzibati yönləndirmədən uzaq tutulması lazımdır".

Fake xəbərlərin qarşısının alınmasına gəlincə, media eksperti qeyd edib ki, bu kimi problemlərə dəmək olar ki, bir çox ölkələrdə rast gəlmək mümkündür: "Hətta bu tip xəbərlərə nəinki Azərbaycan, eləcə də Türkiyə mediasında rast gəlmək mümkündür. Hesab edirəm ki, koordinasiya mərkəzinin formalaşdırılması bu kimi halların qarşısının alınmasında da rol oynayacaq. Hansısa yanlış məlumatın daha operativ şəkildə təkzib edilməsinin, bununla da yayılmasının qarşısını alacaq".

**Tanınmış jurnalist və media eksperti Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında bildirib ki, Türk ölkələrinin Media Koordinasiya Komitəsinin yaradılmasının Azərbaycanın informasiya işlərinə də böyük töhfəsi olacaq.** Media eksperti hesab edir ki, bunun reallaşdırılması Azərbaycanın özünün informasiya siyasətində və informasiya təhlükəsizliyində çox önəmli rol oynayacaq: "Xüsusən daha çevik yanaşma və baş verən hadisələri dünya mediasına çatdırmaq, eləcə də bu prosesdə müəyyən peşəkar vərdişlərə yiyələnmək baxımından, belə bir qurumun olması olduqca əhəmiyyətlidir. Belə bir koordinasiyada təmsil olunmağımız bütövlükdə xeyrimizədir. Çünki Azərbaycan artıq elə bir geopolitik şəraitdə yaşayır ki, bu, bizi informasiya siyasətini yenidən qurmağa sövq edir. Qeyd edim ki, Media Koordinasiya Şurasının yaradılması türkdilli dövlətlərin ümumi maraqlarının ifadəsi olan vahid informasiya siyasətini yürütmək baxımından çox aktualdır. Bu günləri Orta Asiya ölkələrinin informasiya siyasətində müəyyən axsamaların şahidi oluruq. Belə bir Media Koordinasiya Komitəsinin yaradılması ilk növbədə beynəlxalq platformalara çıxışı təmin edəcək. Habelə, öz həqiqətlərimizi dünyaya çatdırmaqda mühüm rol oynayacaq. Təbii ki, bu, beynəlxalq mediada təmsil olunmaq cəhətdən də özünü açıq-aydın şəkildə büruzə verəcək. Hesab edirəm ki, media sahəsində ciddi təcrübəsi olan Türkiyə ilə birlikdə vahid koordinasiya mərkəzinin olması müsbət addımdır".

*Q.Məhərrəmlinin sözlərinə görə, Türk ölkələrinin Media Koordinasiya Komitəsinin yaradılması həm də bizim peşəkarlıq, informasiyayla idarə olunma məsələlərimizə də müsbət təsirini göstərəcək:* "Hazırda bu sahədə bir sıra işlər görülməkdədir. Fikrimcə, bunlar davam edəcəksə, komitənin Azərbaycan mediasına, xüsusən ölkədə informasiya işinin təşkilinə və informasiya təhlükəsizliyinə çox ciddi töhfəsi olacaq".

**Avropa.info xəbər portalının direktoru, jurnalist Ruslan Bəşirli bildirib ki, Türk Şurasında Media Koordinasiya Komitəsinin qurulması türk dövlətlərinin media siyasətini koordinasiya etmək baxımından ciddi fayda verə bilər.** O qeyd edib ki, eyni zamanda bu, türk dövlətlərinin siyasi, iqtisadi, mədəni sferada birləşməsi üçün də zəmin formalaşdıra bilər: "Əlbəttə, qardaş ölkələrin media strukturları fəaliyyətlərini koordinasiya edərlərsə, bu, qismən də olsa feyk xəbərlərin qarşısının alınmasına da səbəb ola bilər. Türk dünyası olaraq artıq mediamızı, siyasətimizi birləşdirməyin zamanı gəldiyini düşünürəm. 44 günlük Vətən müharibəsi zamanı Türkiyə mediası Azərbaycanın haqq işinə ciddi dəstək verdi. Təəssüf ki, digər türk dövlətlərinin media orqanlarından bu dəstəyi müharibə zamanı ciddi mənada görə bilmədik. Lakin 44 günlük İkinci Qarabağ savaşı siyasi reallıqların da dəyişməsinə səbəb oldu. Azərbaycan və Türkiyənin regionda yeni siyasi reallıqlar formalaşdırması, digər qardaş türk dövlətlərin əl-qolunu açdı. Artıq bundan sonra media olaraq da biri-birimizə dəstək verməkdən çəkinməməliyik. Bu yolda qarşımıza çıxan bütün maneələri aradan qaldırmalıyıq. Koordinasiya Komitəsinin bu mənada da ciddi avantajı ola bilər".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Şərtlərimizə müqavimətsiz əməl olunmalıdır




*"Rəsmi İrəvan gələcəyinin Azərbaycan və Türkiyədən asılı olduğunu bilməlidir"*

Prezident İlham Əliyev dünən AzTV-yə müsahibə verib. O, çıxışında bir sıra mühüm məqamlara toxunub. Dövlət başçısı, həmçinin minalı ərazilərin xəritəsinin verilməməsindən danışıb: "Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir.

Halbuki, biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək".

**Millət vəkili Məlahət İbrahimqızı "Şərq"ə açıqlamasında dedi ki, rəsmi İrəvanın bu inadkarlığı onun bir dövlət kimi mahiyyətindən xəbər verir: "Ermənistan terrorçuluğa xidmət edən, faşizmi yayan dövlətdir.** "Dəmir yumruq" başlarına dəysə də, dünya ictimaiyyəti qarşısında biabır olsa da düşmənçilik niyyətlərindən əl çəkmirlər. Ermənistan baş naziri Nikol Paşinyan "nala-mıxa vurur". Rəsmilərin dedikləri üst-üstə düşmür. Deməli, Ermənistanda vahid dövlət siyasəti yoxdur. Çünki Ermənistan özü qondarma dövlətdir. Hansısa qüvvələr Ermənistanın "beynini o qədər zəhərləyiblər" ki, artıq düşmən ölkədə "xroniki xəstəlik" yaranıb. Bu "xəstəliyin müalicəsi" isə xeyli vaxt tələb edir. Əlbəttə, Ermənistanın sözügedən xəritəni verməməsi hansısa qüvvələrin diktəsi ilə həyata keçirilir. Nəzərə almaq lazımdır ki, rəsmi İrəvanın müstəqil xarici siyasəti yoxdur".

*M.İbrahimqızının sözlərinə görə, qərb qonşumuzun bircə çıxış yolu var:* "Ermənistan "dalan dövlətdir". İranla sərhədlər bağlansa, bir neçə günə iflasa uğrayacaq. Odur ki, rəsmi İrəvan gələcəyinin Azərbaycan və Türkiyədən asılı olduğunu bilməlidir. İndi bu iki dövlətin hər birində on minlərlə erməni yaşayır, çörək qazanır. Ona görə şərtlərimizə müqavimətsiz əməl etməlidir. Ən mühüm məsələ isə, şübhəsiz ki, Zəngəzur dəhlizinin açılmasıdır. Qarabağı otuz il işğalda saxlayan Ermənistan nə əldə etdi?! Heç nə! Əvvəl necə idisə, indi də elədir - səfil vəziyyətdə. Nə qədər ki, Ermənistanı daha acı aqibət gözləmir, bu dövlət nicat yolunun Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətlərindən keçdiyini anlamalı və adekvat addımlar atmalıdır".

**Kənan**

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu "Haber-Türk"ə müsahibəsində bildirib ki, beynəlxalq hüquqa hörməti varsa, ABŞ Prezidenti "erməni soyqırımı" deməməlidir.



# Hamı Baydenin ağzından çıxacaq sözü gözləyir

*ABŞ lideri "soyqırım" ifadəsini işlətsə Azərbaycan və Türkiyə münasibətlərinə xələl gətirəcək*

Nazir qeyd edib ki, ABŞ Prezidentinin 24 apreldə hüquqi əsası olmayan "erməni soyqırımı" ifadəsini səsləndirərsə bu, Türkiyə-ABŞ münasibətlərinə xələl gətirə bilər: "Amma biz cənab Bayden nə deyəcək əndişəsini də çəkməməliyik, çünki bu tarixi həqiqətləri və erməni iddialarının əsassız olduğunu dəyişmir".

**Mövzu barədə fikirlərini "Şərq"lə bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, aprelin 24-nə sayılı günlər qaldıqca, erməni lobbisinin fəaliyyəti artıb:** "Konqresmenlər vasitəsilə Co Baydenə təzyiqlər də çoxalıb ki, "erməni soyqırımı" ifadəsini işlətsin. Düşünürəm ki, Bayden keçmişdə erməni lobbisinə nə qədər sıx bağlı olub Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişlərin müəllifi olsa da, bu məsələyə bir az ehtiyatlı yanaşa bilər. Məsələn, Amerikanın keçmiş prezidenti Barak Obama da erməni lobbisinə çox söz vermişdi, 8 il prezident oldu və "erməni soyqırımı" ifadəsini yox, erməni faciəsi sözünü işlətdi. Bayden də bu yolla gedə bilər".

**E.Şahinoğlunun fikrincə, Bayden "soyqırım" sözünü işlətsə belə, bunu böyük faciə kimi qəbul etmək olmaz:** "Çavuşoğlu da müsahibəsində açıq söyləyib ki, bəli, bu ifadənin işlənməsi mənfi qarşılanacaq, amma bundan böyük faciə düzəltmək lazım deyil". Ona qalsa, bəzi qərb ölkələrinin parlamenti "erməni soyqırımı"nı tanıyıblar, bu, nəyi dəyişib ki? Gərək Bayden özü fikirləşə ki, belə ifadə səsləndirməklə Azərbaycan və Türkiyə ilə münasibətlərə xələl gətirmiş olur. Çünki Azərbaycanla Türkiyə qərbə, xüsusilə Amerikaya lazımdır. Ona görə də Bayden məntiqlə yanaşsa, "soyqırım" yox, alternativ olaraq fərqli ifadə işlətməlidir".

**Yeganə Bayramova**

# Tarix təkrarlanır

*Rusiyanı SSRİ-nin taleyi gözləyir*

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu növbəti qıcıqlandırıcı bəyanat verib. O, NATO və ABŞ-ın Qara dəniz hövzəsində, eləcə də hava məkanında təxribatçı fəaliyyətlə məşğul olduğunu deyib. Nazir bildirib ki, cənub-qərb strateji istiqamətində vəziyyət ağır olaraq qalır. O, Ukrayna rəhbərliyini ittiham edib, Donbassdakı vəziyyəti rəsmi Kiyevin gərginləşdirdiyini vurğulayıb.

Rusiyanın Ukrayna ilə sərhədə qoşun toplaması gərginliyi daha da artırıb. İndi çoxlarını düşündürən əsas məsələ proseslərin hansı senari ilə inkişaf etməsidir. Əslində heç kim müharibə istəmir, amma hamı savaşa hazırlaşır. Görünür, sülhün yolu, doğrudan da, müharibəyə hazır olmaqdan keçir.

***Politoloq Sədrəddin Soltan baş verənlər barədə "Şərq"in suallarını cavablandırdı:***

**- Rusiya və Ukrayna arasındakı gərginliyə Avropanın münasibətini necə qiymətləndirirsiniz?**

- Ukrayna ərazi bütövlüyünü bərpa etmək, Krımı geri qaytarmaq, separatçıların ölkə ərazisindəki fəaliyyətini dayandırmaq, Avropaya inteqrasiya etmək və NATO ölkəsi olmaq istəyir. Əlbəttə, suveren ölkə kimi seçim hüququ var. Rusiya isə buna cavab olaraq Ukraynadakı iki separatçı respublikanın müstəqilliyini tanıyır, Krımın ilhaqını davam etdirir. Həmçinin, Kreml Ukraynanın öz daxilində anti-terror əməliyyatına başlayacağından ehtiyat edərək sərhədə qoşun yığır. Dediyim kimi, rəsmi Kiyev Qərbə inteqrasiyanı seçir. Və ABŞ Ukraynanı qəbul edir. Məqsəd onu Rusiyanın təzyiqlərindən qorumaqdır. Ümumiyyətlə, digər normal dövlətlər kimi, ABŞ da Ukraynanın haqlı mövqeyini dəstəkləyir.

**- Şimal qonşumuzun bu cür hegemon siyasətini nə cür dəyərləndirirsiniz?**



"Navalnı ətrafında baş verən proseslər hazırkı iqtidara qarşı kifayət qədər müxalif qüvvənin olduğunu göstərir"

- Rusiya özünü dünyanın bir qütbünün sahibi hesab edir və bəzi dövlətləri öz ətrafında birləşdirməyə çalışır. Halbuki vaxtilə, az qala, dünyanın yarısı olan SSRİ belə, Qərblə bacarmamışdı. Deməli, Moskvanın bu ritorikası sadəcə "ürək bulandırmağa", vəziyyəti mürəkkəbləşdirməyə və özündən zəifləri təhdid etməyə hesablanıb.

**- Tərəflər arasında müharibə başlayarsa, ABŞ sözdəki mövqeyini əməldə də təsdiqləyəcək?**

- Belə bir hal olsa, Ukrayna ilə ABŞ arasında imzalanan hərbi müqavilələrə nəzər salmaq lazımdır. Ukrayna NATO ilə əməkdaşlıq etdiyinə görə, savaş başlasa, silahlı qüvvələrin NATO standartlarına cavab verməsi şərtə çevriləcək. Yəni ABŞ başda olmaqla, NATO-nun Ukraynanı dəstəkləyəcəyi istisna deyil.

**- Elə isə potensial hərbi əməliyyatların nəticəsi barədə proqnozunuz nədir?**

- 1988-ci ildə Əfqanıstanla SSRİ arasındakı müharibənin senarisi təkrarlanacaq. Bildiyiniz kimi, həmin toqquşmadan sonra SSRİ-nin çöküşü başlandı. İmperiya iqtisadi cəhətdən zəiflədi və daxildə mərkəzdən qaçma meyilləri baş qaldırdı. Yəni müharibə Rusiya üçün mənfi nəticələrlə yadda qalacaq. Putin hakimiyyəti isə, şübhəsiz, dağılacaq.

Çünki Navalnı ətrafında baş verən proseslər hazırkı iqtidara qarşı kifayət qədər müxalif qüvvənin olduğunu göstərir.

**Kənan Novruzov**

# Azərbaycanın nüfuzu və strateji əhəmiyyəti artacaq




## *Zəngəzur dəhlizi bütün türk dünyasının iqtisadi inkişafına təkan verəcək*

Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verdiyini bildirib.

Dövlət başçısı bəyan edib: "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

**Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi post-müharibə dövründə region üçün prioritet məsələlərdəndir.** Millət vəkili qeyd edib ki, bu, Azərbaycanın qərb bölgələrinin Naxçıvan Muxtar Respublikası ilə quru nəqliyyatı vasitəsi ilə birləşdirməklə yanaşı, həm də regionda davamlı sülhün formalaşması baxımdan vacibdir: "Zəngəzur dəhlizi 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı ölkəmizin strateji əhəmiyyətini də artıracaq. Dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək". V.Bayramov əlavə edib ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir. Birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də, Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək. Ölkəmizin geo-iqtisadi əhəmiyyəti daha da artırılacaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək".

**Aynurə Pənahqızı**

### Təbrik edirik!



**O bizim Aydınımızdı.** Çətin gündə yanımızda olan, dar macalda köməyə çatan, xoş gündə sevincimizə sevinc qatan. Əsl dost Aydın Cabbarlı kimi olur. Bu gün onun doğum günüdü. Təbrikləri sevməz. Diqqət cəlb etmək istəməz. "Şərqçi"lərsə onun doğum gününü yaddan çıxarmayıb. İllər öncə "Şərq"in əməkdaşlarının doğum günlərinin təşkilatçısı, əsasən Aydın bəy olardı. Qəzetin kommersiya direktoru idi. Maliyyəni necə bölüşdürməyi gözəl bilirdi. "Şərq"in oxuculara vaxtında, fasiləsiz çatdırılmasında böyük əməyi vardı. Təkliflər də irəli sürürdü və müsbət nəticə özünü çox gözlətmirdi. Növbəti doğum günündə "Şərq" ailəsi Aydın bəyi təbrik edir. Hazırkı zamanda can sağlığından üstün bir arzu da yoxdur. Əziz qardaşımıza, dostumuza Allahdan can sağlığı, bundan sonra da sağlıqlı ömür sürməsini arzulayırıq. Ailəsi ilə birgə firavan, xoşbəxt günlər yaşasın.

**"Şərq" qəzetinin kollektivi**



**VHP Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Ordusunun 44 günlük Zəfər Savaşının nəticələri Ermənistan hökumətini çətin vəziyyətə salıb.** S.Əsədli əlavə edib ki, bu əməli ilə Paşinyan məğlubiyyətdə günahkar olmaması barədə cəmiyyətdə

# Guya, ordu rəhbərliyi Paşinyanı aldadıb

## *Baş nazir ictimai rəyi xeyrinə dəyişməyə çalışır*

Ermənistan Təhlükəsizlik Şurası Qarabağda döyüşlərin dördüncü günü baş tutan görüş zamanı Silahlı Qüvvələrin Baş Qərargahının keçmiş rəisi Onik Qasparyanın nitqinin səs yazısından fraqmentləri yayımlayıb.

Bu barədə "Sputnik Ermənistan" məlumat verib. Keçən həftə Qasparyanın hesabatının mətni qismən ictimaiyyətə açıqlanmışdı, lakin indi bu fraqment səs versiyasında təqdim olunub. Məruzəsində Qasparyan əməliyyat vəziyyətinin dəyişmədiyini, düşmənin irəliləmədiyini bildirib: "Hər halda qoşunlar vəzifələrini yerinə yetirirlər, şəhərlər Cəbrayıl istiqamətində kiçik bir hücum təşkil edərək uğur qazanıblar". Sonda Qasparyan ordunun tapşırıqları yerinə yetirməyə davam etdiyini və sona qədər yerinə yetirəcəyini deyib.

**Mövzuya münasibət bildirən** rəy yaratmağa çalışdı: "Ermənistanın ağır iqtisadi-sosial durumu, müxalifətin fəallığı və belə bir vəziyyətdə parlament seçkilərinin yaxınlaşması Paşinyan komandasına ağır günlər yaşadır. Erməni baş nazir suda boğularkən saman çöpünə belə əl atan şəxsə bənzəyir. Bir zamanlar Şuşada kef məclisi quran, separatçı rejimin rəhbərinin inaqurasiyasına qatılan, "Qarabağ Ermənistandır" sərsəmləməsinə imza atan Paşinyan indi əməllərinin bədəlini ödəyir. Həmçinin o, ağır məğlubiyyətdən yaxasını qırağa çəkməyə çalışır. Silahlı Qüvvələrin Baş Qərargahının keçmiş rəisi Onik Qasparyanın səs yazısının yayılması da eyni yaxasını qurtarmağa hesablanıb. Bununla Paşinyan məğlubiyyətdə günahkar olmaması və ordu rəhbərliyinin onu aldatması haqda cəmiyyətdə rəy yaratmağa çalışır".

**Aynurə Pənahqızı**

# Böyük işsizlər ordusu Vətənə qayıdacaq

## *"Rusiya hər zaman miqrantlardan siyasi alət olaraq istifadə edir"*



Rusiya Federasiyası Daxili İşlər Nazirliyi (DİN) MDB-yə üzv olan dövlətlərdən öz vətəndaşlarını bu ilin iyun ayının 15-nə qədər Rusiya ərazisindən çıxarmalarını tələb edib. Bunu nazir müavini Aleksandr Qorovoy MDB-nin Parlamentlərarası Assambleyasının toplantısında açıqlayıb.

Federal DİN-in məlumatına görə, hazırda Rusiya ərazisində Özbəkistandan 332 min, Tacikistandan 247 min, Ukraynadan 152 min, Azərbaycandan 120 min, Qırğızıstandan 115 min, Ermənistandan 61 min, Moldovadan 56 min, Qazaxıstandan 49 min adam qeyri-leqal yaşayır.

120 min azərbaycanlının geri qayıtması ölkədəki sosial-iqtisadi vəziyyətə necə təsir edəcək? Azərbaycan dövləti bunun üçün hansı addımları atmalı olacaq?

**Sualımızı cavablandıran iqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə bildirib ki, Rusiya hər zaman miqrantlardan siyasi alət olaraq istifadə edir.**

Ekspertin sözlərinə görə, indiki şərtlər daxilində Rusiyanın sosial-iqtisadi göstəriciləri kifayət qədər zəifdir: "Belə olduqda əmək bazarında mövcud olan təzyiqləri azaltmaq məqsədilə qanunsuz miqrasiyanı gündəmə gətiriblər. Nəzərə almaq lazımdır ki, bir sıra fəaliyyət sahələrində Rusiyanın miqrantlara ehtiyacı var".

R.Həsənov qeyd edib ki, baş verənlərin indiki halda ölkəmizə təsirləri arzuolunan deyil: "Xüsusilə pandemiya əmək bazarındakı vəziyyəti gərginləşdirir, sosial-iqtisadi göstəriciləri zəiflədir. Belə şərtlər daxilində bazarlarda fəaliyyət göstərən və gəlir əldə edən şəxslərin işsiz kimi Azərbaycana qayıtması bir tərəfdən əmək bazarında təzyiqləri artıracaq. Bütün bunlar sosial-gərginliyə də səbəb ola bilər.

Digər məqam isə odur ki, bölgələrin sosial təminatında Rusiyadan göndərilən vəsaitlərin rolu böyükdür. Xüsusilə, cənub bölgəsində - Lənkəran, Astara və Masallı camaatının ailələrinə göndərdikləri vəsait həmin ailələrin yaşayış təminatı üçün əsas maliyyə bazası hesab olunur".

*İqtisadçının fikrincə, baş verənlər ölkəmizdə cinayətkarlığın da genişlənməsinə səbəb ola bilər:* "Hökumət bu məsələni hər zaman diqqətdə saxlamalıdır. Çünki işsizlik, aqressiya və gərginlik insanların bir qismini qeyri-qanuni fəaliyyətlərə maraq göstərməsinə səbəb ola bilər. Əsasən də cənub bölgəsindəkilər narkotik ticarətinin iştirakçısı ola bilərlər. Bu da ölkəmizdə cinayətkarlıq səviyyəsinin artmasına zəmin yaradacaq. Hökumət bununla bağlı ciddi addımlar atmalıdır. Lakin bütün bunlardan əvvəl ilk olaraq Rusiya ilə müəyyən danışıqlara getməlidir. Qərarın təsirlərinin aradan qalxması istiqamətində nəticələr əldə edilməlidir. Həmçinin çalışmalıdırlar ki, miqrantların Rusiyada fəaliyyətinin leqallaşdırılması ilə bağlı Azərbaycan tərəfindən asılı olan rəsmi sənədlər gözdən keçirilsin. Lazım gəldikdə bu proses ölkəmiz tərəfindən sürətləndirilməli, miqrantların müəyyən qisminin miqrasiyasını rəsmiləşdirməsi üçün şərait yaradılmalıdır"

**Yeganə Bayramova**

# “Bir günlük verilişinin bağlanmasına niyə sevinirsiz?”

## Tarix Əliyev aparıcı Zaura dəstək oldu





Xəbər verdiyimiz kimi, "ATV" televiziya kanalında yayımlanan "Bizimləsən" proqramı dəvət olunan vətəndaş tərəfindən efirdə səsləndirilən faktlara görə dayandırılıb.

**"Şərq" xəbər verir ki, prodüser Tarix Əliyev verilişin aparıcısı Zaur Baxşəliyevə dəstək olub. O, instaqram hesabında bunları yazıb:** "Çox cahilsiz çox! Zaurun saçları efirdə ağardı, yoxsulların dərdinə şərik oldu. Efirdə minlərlə xəstənin şəfasına vasitəçilik etdi, qarşınızda diz çökdü. Daim Allahına, xalqına şükür etdi. Hər zaman əlindən gələni etməyə çalışdı. Amma indi 1 günlük verilişi bağlanmasına sevinən cahillər instaqramda ağzına gələni yazdı. Axı siz kimsiniz? Həyatda özünə gün ağlamayanlar, nəinki cəmiyyətə, ailəsinə xeyri olmayan məxluqlar! Dənizdən 1 ton su götürülsə də, yenə dənizdi. Zaura nə oldu ki? Nə tez sevindiniz? Zaurun xilaskarı olduğu xəstələrin duası ona bəsdir. İt hürüb karvan da keçib. Zaur elə həmin Zaurdur! Mənim də verilişim bağlananda itlər hürürdü, amma nə oldu? Proqramım olsa da, olmasa da Tolikəm. Bu cəmiyyətdə nə etsən də 1 gün yadda qalır. Ona görə yıxılmamaq üçün çalışmalısan. Çünki ermənidən çox səni özününkülər vurmağa cəhd edəcəkdir".

*Qeyd edək ki, MTRŞ "ATV" televiziya kanalı yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən proqramların onların baxa biləcəyi vaxtda göstərilməsinə görə "Bizimləsən" proqramının yayımının dayandırılması, "ATV" televiziya kanalı tərəfindən, ona tətbiq edilmiş məsuliyyət tədbirinin məzmunu barədə məlumatı yayımın dayandırılması müddəti ərzində özünün efirində yayımlanmasının təmin olunması haqqında qərar qəbul edib.*

**Samirə**

## Aygün MM min dollara toya getməyə hazırdır

"On toy olsa, 10 min dollar edir. Az puldur?"



**Son günlər Sevil və Sevinc bacılarının "Göyərti puluna Moskvaya getməyə dəyməz" açıqlaması müzakirə olunur. Həmkarlarından onlarla razılaşanlar da var, əks fikir bildirənlər də.**

"Şərq" xəbər verir ki, müğənni Aygün MM də "Xəbər-ətər" verilişində qonaq olarkən əkizlərin sözlərinə münasibət bildirib. Moskva toylarında verilən qonorarın az olmadığını söyləyib: "Deyirlər qiymətlər aşağıdır. Nə qədər məbləğdən söhbət gedir? Adını çəkən yoxdur. Mən eşitmişəm ki, 1000 dollar təklif edirlər. Getdin 10-15 toyu 1000 dollardan oxudun. Şəxsən mənə həmin qonorarı verin toya gəlirəm. On toy olsa, 10 min dollar edir. Az puldur? Bunlar nə demək istəyirlər? Çox yaxşı məbləğdir. Fikrimcə, bəzilərini çağıran yoxdur deyə belə danışırlar. Ona görə deyirlər məbləğ azdır, göyərti puludur və sair".

**Samirə Ərəblinski**

## Namiq Qaraçuxurlu toparlanmağa çalışır

O, İkinci Fəxri Xiyabana gələrək şəhidlərin ruhu qarşısında halallıq istəyib



**Meyxanaçı Namiq Qaraçuxurlu uzun müddət sonra sənətdə fəaliyyətini bərpa edib.**

"Şərq" xəbər verir ki, bu barədə N.Qaraçuxurlunun özü məlumat yayıb. O, instaqram səhifəsində İkinci Fəxri Xiyabandan video paylaşaraq bu sözləri yazıb: "Bilirsiniz ki, uzun zamandır işlərimi dayandırmışam. Bu gün Şəhidlər Xiyabanına gəldim. Şəhidlərimizin ruhu ilə dərdləşdim və onlardan halallıq istədim. Şəhid ailələrinə və millətimə səslənirəm, icazə verirsinizsə, mən də toparlanmaq istəyirəm. Allah millətimizə səbr versin. Hünərimiz, gücümüz tükənməz olsun".

**Samirə Ərəblinski**

## "Bütün toylara anam mənimlə gəlirdi"

Gülay Zeynallı: "Stabil qiymət 4 şirvan idi, artıq qazananda anamla evə taksi ilə qayıdırdıq"



**Müğənni Gülay Zeynallı "Günün sədası" verilişində qonaq olarkən sənət yolunun başlanğıcından danışıb.**

"Şərq"in məlumatına görə, sənətçi ilk dəfə 11 yaşında dövlət tədbiri üçün Fransaya getdiyini söyləyib: "Sonra işləməyə başladım. Bülbül adına orta ixtisas musiqi məktəbində 8-ci sinifdə oxuyurdum. Birinci dəfə toya gedirdim, gecikdiyim üçün axırıncı dərsdən qaçdım. Məktəbin pilləkənləri də köhnə idi, ona görə oradan üzüaşağı yıxıldım. Toya çatanda gördüm ayağım qanayır. Həmin şənlikdən o zamanın pulu ilə 4 şirvan qonorar aldım. Mən pulumu həmişə ailəm üçün xərcləmişəm. Anam toylara mənimlə gəlirdi. Stabil qiymət 4 şirvan idi, artıq qazananda anamla evə taksi ilə qayıdırdıq. Olmayanda isə dayanacaqda avtobus gözləyirdik. İnsan hər gününə şükür etməlidir".

**Samirə Ərəblinski**

# Xərçəngə qalib gələcək

## "Ağadadaş Ağayev möhkəm, əzimli insandır"



Xərçəng xəstəliyinə tutulan müğənni Ağadadaş Ağayev əməliyyat olunub.

**"Şərq" xəbər verir ki, bu barədə onun dostu, jurnalist Hacı Nuran məlumat yayıb. O, instaqram səhifəsində sənətçi ilə fotolarını paylaşaraq bunları yazıb:** "Çox ağır xəbər oldu, inanmaq istəmədim. Ürəyimdə "bəlkə" dedim. Amma illərin dostu A.Ağayevin xərçəng xəstəliyinə tutulması və Türkiyədə müalicə alması doğru imiş. Əsrin bəlasına çevrilən xərçəng Ağayevlər ailəsinə də yol açıb. Demə sənətkar həyatda qalmaq üçün mübarizə aparırmış və bu gün əməliyyat olundu. Belə məqamlarda nə deyəcəyini bilmirsən. Çünki xəstəlik yatağı ağırdır. Bunu öz canında, qanında hiss edən bir adam kimi bilirəm. Ağadadaşın dərdi mənə çox yaxındır. Özümü pis hiss edirəm. Bu ağır günündə onun yanında ola bilmirəm. Gücüm dualara çatır. Doğmaları pərişan, pərəstişkarları qəmlidir. Sevimli müğənniyə xəstəlik xəbəri yaraşmır. Biz onu toylarda görməyə alışmışıq, xəstə yatağında yox. Ağadadaş dərdini içində yaşayan adamdır. Xərçəngdən əziyyət çəksə də, bu barədə kiməsə bir söz deməyib. Öhdəsindən gələcəyini düşünüb. Məncə qalib gələcək. O, möhkəm, əzimli insandır. Tez sağal, sənsiz səhnəni təsəvvür etmirəm".

**Samirə Ərəblinski**

# Nazim Pişiyari Nura Surini müğənni saymır

## "Sadəcə bir insandır, Allah verdiyi səslə danışır"





"Nura Suri adında müğənni tanımıram. O insan haqqında danışmaq istəmirəm. Qadın, insan, xanım var, özü də Nura yox, əsl adı Aynurədir. Aynurə adında qız tanıyıram, amma Nura Suri adlı müğənni tanımıram. O, mənim üçün müğənni deyil".

Bu sözləri müğənni Nazim Pişiyari "MTV Azərbaycan"a açıqlamasında Nura Surinin ünvanına deyib. Sənətçi aralarında yaşanan qalmaqalın səbəbini açıqlamasa da, onun şəxsi məsələ olduğunu bildirib:

"Əfsuslar olsun ki, məsələni efirə çıxardı, gündəmə gətirdi. Ondan sonra Nura Surini hər yerdə qara siyahıya atmışam, əlaqə nömrələrini pozmuşam. Bu insanla üzbəüz də gəlmək istəmirəm. Müğənni saymıram, sübut etməyə də hazıram. Onun nə musiqi savadı, biliyi var. Müğənniliyə yararsız adamdır. Onun səsi də yoxdur. Sadəcə bir insandır, Allah verdiyi səslə danışır".

Nura Surinin qarşı tərəfə cavabı gecikməyib. O, Nazimin ünvanına "Mediatik insanam, hamı özünə borc bilir ki, çıxıb mənə söz atsın. Amma bilmirlər ki, media ilə dostam, deyə, bilərəm yazmayın. Reklam istəyirsinizsə, gəlin ödəniş edin, çıxaq dalaşaq. 17 ildir kliplər çəkdirdim, təqdimatlar etdim, mahnılar yazdırdım ki, sabah kimsə gəlsin nəsə desin? O, məni tərifləsə, özüm-özümdən şübhə edərəm" sözlərini söyləyib.

# Keçidlər bir nömrəli problemdir



## *Amma sərnişinlərin özləri də elə bir "canlarından bezib"*

Ötən günlərdə Bakıda dəhşətli yol qəzası baş verib. Hadisə Heydər Əliyev prospektində qeydə alınıb. Piyada keçidi olmayan və avtomobillərin yüksək sürətlə hərəkət etdiyi yerdən yolu keçməyə çalışan 28 yaşlı Gülnar və onun 9 yaşlı oğlu Yusmir maşın vurması nəticəsində vəfat edib.

Bundan sonra sürücülər sosial şəbəkələrdə aksiya başladaraq piyada vurulmalarına görə sürücülərin cinayət məsuliyyətinə cəlb edilməsinin əleyhinə çağırışlar etməyə başlayıblar. Vətəndaşlar qaranlıq vaxtı sürücünün piyadanı görüb qəzadan yayınmasının mümkün olmadığını bildirirlər. İddia olunur ki, sürücü piyadaları vurmamaq üçün hərəkət istiqamətini dəyişsə, daha böyük faciəyə səbəb ola bilərdi. Həmin yolda süni işıqlandırmanın zəif olması da sürücülərin piyadaları görməyini çətinləşdirir.

Sosial şəbəkə istifadəçilərinin digər qismi isə yüksək sürətli yollarda piyada keçidlərinin olmamasına irad bildirirlər. Vətəndaşlar qeyd edirlər ki, əksər yolda piyada keçidləri çox uzaqdadır, ya da ümumiyyətlə yoxdur.

**Bədbəxt hadisə barədə "Şərq"ə danışan**

### "Yol hərəkəti təhlükəsizliyində kiçik bir səhv ölüm deməkdir"

**"Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat eksperti Elməddin Muradlı bildirib ki, yüksək sürətli yollarda qanunvericiliyin tələblərinə uyğun piyada keçidləri tikilməlidir. Ekspert qeyd edib ki, piyada keçidləri standartlara uyğun olaraq vətəndaşların istifadəsinə verilməlidir:** "Əslində Heydər Əliyev prospekti yaşayış məntəqəsi sayılır. Qanunvericiliyə görə, həmin ərazidə 300 metrdə bir piyada keçidi olmalıdır. Amma belə bir keçid yoxdur. Məlum hadisə piyada keçidindən 500-600 metrdən kənarda baş verib. Burada piyada məsuliyyətsizliyi məsələsi də önə çıxır. Bir insan 500 metr məsafəni qət etməyi ölümdən daha ağır cəza kimi qəbul edir. Yəni "qoyun ölüm, amma o yolu getməyim". Lakin bu düzgün deyil. İnsanlar bilməlidir ki, "sonrakı peşmanlıq fayda vermir". Bəzən yol polisləri ilə reydlər keçirəndə görürük ki, vətəndaş piyada keçidinə 5-10 metr qalsa da, ondan istifadə etmir. Nə üçün belə etdiklərini soruşanda isə deyir ki, "ayağım ağrıyır", "gecikirəm" və s. Əlil arabasında olanda isə nə ayağı ağrıyacaq, nə də harasa gecikəcək".

E.Muradlı vurğulayıb ki, piyadalar məsuliyyətlərini dərk etmirlər: "Bəzən yolda kimisə saxlayırsan deyir ki, şəhid qızıyam, qazi oğluyam. Hərə bir bəhanə tapır. 20 yanvar dairəsində reydlər zamanı piyadadan soruşuruq ki, niyə keçiddən istifadə etmir?

Cavabında bildirir ki, piyada keçidi uzaqdadır. İnsanlar ölümə tələsirlər. Yol hərəkəti təhlükəsizliyində kiçik bir səhv ölüm deməkdir. Piyadalar qayda-qanunlara əməl etməli, aidiyyəti qurumlar isə öz məsuliyyətlərini dərk etməlidirlər. Dövlət Yol Polisi (DYP), Bakı Nəqliyyat Agentliyi (BNA), Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əl-ələ verib səmərəli iş görməlidirlər. Ukrayna dairəsində bəzəkli bir piyada keçidi tikiblər, baxanda elə bilirsən ki, ticarət mərkəzidir. Belə keçid tikməkdənsə, Heydər Əliyev prospektində 3 piyada keçidi salınmalıdır. Dövlət vəsaitini səmərəli istifadə etmək lazımdır. Aidiyyəti qurumlar məsuliyyətsizdir, kimin ağlına nə gəldi, onu da edir. 3 dövlət qurumu bir-biri ilə anlaşa bilmir. O deyir mən ağıllıyam, bu deyir mən çox bilirəm, digəri isə deyir ki, səlahiyyət mənimdir. Sadəcə səlahiyyət davası gedir. Lakin insanların təhlükəsizliyinə ciddi yanaşılmalıdır".

**Yeganə Bayramova**

# Kilosu 100 manata satılır



## *Mövsümün ilk meyvəsinin anbara gətirilməsi münasibəti ilə təntənəli mərasim düzənlənib*

*(Əvvəli səh: 16-da)*

**Gilas böyrək xəstəlikləri zamanı olduqca faydalıdır.**

Sidikqovucu xassəyə malik olan gilas yüksək qan təzyiqindən əziyyət çəkənlər üçün xeyirlidir. Gilasın əsas faydalarından biri də odur ki, o damarlarda tıxacların yaranmasının qarşısını alır. Qırmızı gilasa nisbətdə ağ gilasda qlükoza daha çoxdur. Şəkərli diabet xəstələri bunu diqqətdə saxlamalıdırlar. Qanazlığı (anemiya) olanların gilasdan daha çox istifadə etmələri məsləhətdir. Gilas sinir sisteminə də müsbət təsir göstərir, fiziki yorğunluğu aradan qaldırır və normal yuxunu təmin edir. Qaraciyəri təmizləməklə yanaşı gilas həm də onun fəaliyyətini yaxşılaşdırır. Gilas, həmçinin, maddələr mübadiləsini tənzimləyir, həzm prosesini normallaşdırır. Artıq çəkidən yaxa qurtarmaq istəyənlər də çəkinmədən gilas yeyə bilərlər. Çünki 100 qram gilas orqanizmə cəmisi 50 kilokalori verir. Gilas öz tərkibinə görə orqanizmin immun sisteminin güclənməsinə müsbət təsir göstərir. Gilasın daha bir xeyri görmə qabiliyyətini yaxşılaşdırması və zehni fəaliyyətə müsbət təsir göstərməsidir. Uşaqlar, hamilə qadınlar, yaşlılar üçün də çox vacib meyvədir. Gilas qalxanvari vəz, zob xəstəliklərində, öskürək, ağciyər xəstəliklərində faydalıdır. Gilasın isti kompotu, məhlulu öskürəyi yumşaldır, bronxları açır. Orqanizmi xərçəng şiş hüceyrələrindən qoruyur. Gilas yüksək səviyyədə antioksidant təsirlidir. Gilas təbii melatonin -yuxu və gümrahlıq hormonu mənbəyi olduğu üçün yuxusuzluğu aradan qaldırır. Köpü, qəbizliyi olanlar gilası az yeməlidir, çünki gilas qaz yaradır. Diabet xəstələri də çox az qəbul etməli, gilasın, əsasən turş növlərini seçməlidirlər.

**Məlahət Rzayeva**

# Ora son qazanc yeri kimi baxanlar var



## *Daş karxanaları qanunla fəaliyyət göstərsə büdcəyə də xeyri olar*

Bakının Sabunçu rayonu, Nardaran qəsəbəsindəki daş karxanasının fəaliyyəti dayandırılacaq. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi "Ekspert saatı"nda Dövlət Ekoloji Ekspertiza Agentliyinin sədri Mirsalam Qənbərov deyib.

O bildirib ki, karxananın fəaliyyəti dayandırılacağı vaxt müəyyən edilməyib: "Daş karxanasında irəli sürə biləcəyimiz tələblər mütərəqqi texnologiyadan, avadanlıqlardan istifadə etməklə tozun qarşısını almaq, minimum tullantıya nail olmaqdır. Daş karxanası bu gün də sənaye zonası kimi sahibkarlar tərəfindən istismar olunur. Düşünürəm ki, mövcud olan ehtiyatlar tükənmək üzrədir, eyni zamanda ətraf ərazilərdə yaşayış massivləri getdikcə çoxalır. Şəhərsalma, şəhərin baş planı baxımından müvafiq qurumlar bunları nəzərə alırlar və alacaqlar".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Rauf Qarayev deyib ki, daş karxanaların bağlanmasındansa, işlənməsi daha effektlidir. Ekspert düşünür ki, karxanaların bağlanması heç də düzgün addım deyil:** "Nəzərə alaq ki, burada fəaliyyət göstərənlərin əksəriyyəti vergidən yayınır. Bu baxımdan dövlət büdcəsi üçün karxanalar effektli deyil. Bura yalnız qul əməyi baxımından effektli ola bilər. Həmçinin qeyd edim ki, burada sanitar-gigiyena qaydalarına elə də ciddi riayət olunmur. Diqqət yetirsək, bu hala bir çox daş karxanalarında rast gəlmək mümkündür. Qeyd edim ki, həyatından bezib son qazancını orada görən əksər insanlar karxanada işləməyə məcburdur. Yəni burada işləyənlər bütün riskləri göz önünə alır. Hesab edirəm ki, karxanalar qanun çərçivəsində işləyərsə, o zaman dövlətimiz üçün effektivliyi böyük olar".

**Aynurə Pənahqızı**


**Elanlar**

"Kürdəmir-Pambıq" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə !

2021-ci il iyun ayının 28-də saat 10.00-da cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəliyə çıxarılan məsələlər:

- cəmiyyətin illik balansının müzakirəsi və təsdiqi (zərər və mənfəətin bölüşdürülməsi);
- cəmiyyətin emal sahəsi üzrə gələcək fəaliyyətinin müzakirəsi və bu barədə qərar qəbul edilməsi;
- təşkilati məsələlər
- sair məsələlər.

Yığıncaq cəmiyyətin yerləşdiyi Kürdəmir şəhəri, M.Ə.Sabir küçəsi, 12 nömrəli ünvanda keçiriləcək. Səhmdarların iştirakı vacibdir.

İdarə Heyəti ilə əlaqə telefonu:
(050) 233-05-05
Direktorlar şurası

---

Masallı rayonunun Ərkivan qəsəbə sakini Kərimova Gülnisə Abuzər qızına Masallı Rayon Aqrar İslahat Komissiyasının 23 noyabr 1999-cu il 65 saylı qərarı ilə 0,45 payıbəlli torpağa görə verilmiş JN 473 KOD 80500018 Torpağa Dövlət Mülkiyyət hüququna dair akt itdiyi üçün etibarsız sayılır.

---

Eyyubov Ədalət Əyyub oğluna Carcı balıqçılıq tərəfindən verilmiş Pirallahı r-nu, Pirallahı qəsəbəsi, Dübəndi bağlar massivində yerləşən torpaq sahəsinin sənədləri itdiyi üçün etibarsız sayılır.



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 699



# Mobil ev...

## Kanada iqlimi üçün hazırlanıb

**"Fritz Tiny Homes" arxitektura studiyasının sahibləri olan kanadalı ər-arvad təkərlər üzərində mobil bir evin dizayn və layihəsini hazırlayaraq həyata keçiriblər.**

Azərtac bildirir ki, səyyar ev qış aylarında temperaturu mənfi 40-a enən sərt Kanada iqlimi üçün hazırlanıb. Sahəsi cəmi 24,9 metr olmasına baxmayaraq, burada komfortlu yaşamaq üçün lazımi şərait yaradılıb. Evin mərkəzi hissəsində təbii ağacdan hazırlanan möhkəm mebel dəsti, müasir məişət texnikası, eləcə də zəruri mətbəx avadanlığı ilə təchiz edilmiş mətbəx də var. Mobil evin tikintisində yüksək keyfiyyətli materiallardan istifadə edilməklə, istilik və səs izolyasiyasına da xüsusi diqqət yetirilib. Dizaynerlərin əsas məqsədi yığcam, uzunömürlü və enerji effektivliyinə malik mənzil yaratmaq olub.

# Qədim üzük tapıldı

## Tarixi əsər elan edilən bu əşyanın kimə məxsus olduğu mübahisəlidir



**İngiltərənin qərbində İrlandiya dənizindəki Man Adasında Vətəndaş müharibəsi dövründən qalan üzük tapılıb.**

"Şərq"in türk mediasına istinadən məlumatına görə, arxeoloqlar üzüyün 1651-ci ildə vəfat edən Derbi qrafı Ceyms Stanleyə aid ola biləcəyini təxmin edirlər. Tarixi əsər elan edilən bu əşya eyni zamanda qızıl yas üzüyü də (vəfat etmiş bir şəxsin xatirəsinə taxılan üzük) adlanır. Manx Milli İrs Təşkilatının arxeoloqu Alison Foks qeyd edib: "Üzüyün keyfiyyəti onun yüksək statuslu bir şəxs üçün hazırlandığını göstərir. Üzüyün kimə məxsus olduğunu və ya kimin anıldığını dəqiq şəkildə təyin edə biləcəyimiz ehtimalı çox azdır. Lakin bu, əvvəllər qraf Stanley ailəsi ilə əlaqəli ola bilər".

**Yeganə**

# Tarixin ən böyük telefon fırıldağı...

## 90 yaşlı qadını aldadıb 32 milyon dollarını mənimsədilər



**90 yaşındakı Honq Konqlu qadın özünü Çinin səlahiyyətli adamı kimi təqdim edən saxtakar tərəfindən aldadılıb. Yaşlı qadının təmtəraqlı məhəlləsi olan bir malikanədə yaşadığı bildirilir.**

"Şərq" "Ntv.com.tr"yə istinadən xəbər verir ki, cinayətkar keçən yay qadınla əlaqə saxlayıb özünü səlahiyyətli asayiş keşikçisi kimi tanıdıb.

Fırıldaqçı qadının saxta istintaq qrupu hesablarına pul köçürməli olduğunu söyləyib. Bundan sonra saxta təhlükəsizlik qrupu ilə əlaqə qurmaq üçün qadının evinə xüsusi bir mobil telefon və sim kart göndərib.

Beş ay ərzində yaşlı qadının 11 ayrı hesaba ümumilikdə 32 milyon dollar köçürdüyü ortaya çıxıb.

Tarixdəki ən böyük telefon fırıldağı hadisəsi evdəki qulluqçunun vəziyyətdən şübhələnib, qadının qızı ilə əlaqə yaratdıqdan sonra ortaya çıxdı.

**Yeganə**



# Kilosu 100 manata satılır

## *Mövsümün ilk meyvəsinin anbara gətirilməsi münasibəti ilə təntənəli mərasim düzənlənib*



**Manisanın Şahzadələr bölgəsində gilas yetişib. Bu, yaz mövsümünün ilk məhsuludur.**

Qiyməti də "rəmzi"dir - kiloqramı 500 lirə. Təxminən 100 AZN. Manisanın bu gilası "qırmızı altun" adlanır. Mövsümün ən tez yetişən, ilk məhsulu hesab edilir. Manisanın Çobanisa məhəlləsində "Cristobalina" gilas sortu yetişdirən fermerlər məhsulun ilk yığımını mərkəzi meyvə-tərəvəz anbarına daşıyıblar. Mövsümün ilk meyvəsinin anbara gətirilməsi münasibəti ilə təntənəli mərasim düzənlənib. Tədbirdə fermerlər, istehsalçı və ixracatçılarla yanaşı, Manisanın rəsmi şəxsləri də iştirak edib. Bölgə fermeri Yavuz Tunun yetişdirdiyi 70 kiloqram gilas rəmzi şəkildə açıq satışa çıxarılıb və 500 lirəyə satılıb. Gilası alan tacir "bu, rəmzi rəqəmdir. Gilas mövsüm ərzində normal qiymətinə düşəcək. Bu, ilk məhsul olduğu üçün fermerləri sevindirmək, təşviq etmək istədik. İlk məhsulu Ankaraya göndərəcəyik. Oradan artıq mehmanxana və marketlərə də gedəcək". Yazın ilk nübarlarından sayılan qırmızı gilasın faydalarını sadalamaqla bitməz.

100 qram gilasın tərkibində orqanizm üçün vacib nə qədər maddə var; su, protein, yağ, karbohidratlar, pektin, kalium, kalsium, maqnezium, natrium, yod, fosfor, üzvi turşular, vitamin B, vitamin E, vitamin C , vitamin B1, vitamin B2, vitamin PP... cəmisi 100 qram gilas yeməklə orqanizm yuxarıda sadalanan maddələri qəbul etmiş olur.

*(Davamı səh: 15-də)*

# Dünyanın "ən tənha evi"

## 100 ildir gözdən uzaq bir adada tərk edilib



**Dünyanın "ən tənha evi" İslandiyanın kimsəsiz, gözdən uzaq bir adasındadır. Bu ev 100 ildən artıqdır ki, tərk edilmiş vəziyyətdə qalmaqdadır.**

Bura İslandiyanın cənubundakı Ellidaey adasıdır. "Şərq" "Hürriyet".com"a istinadən bildirir ki, tarixən bu adanın sakinləri çox az sayda olub. Qalan "iki cüt bir tək" sakin də 1930-cu ildə adanı tərk edib, məskunlaşmanın daha çox olduğu başqa əraziyə köçüblər. Tənha evin sahibinin kimliyi ilə bağlı əvvəlcə bəzi söz-söhbətlər yayılıb. Evin, qiyamət qoparsa adada yaşamağı planlaşdıran bir milyonçu tərəfindən inşa edildiyi xəbəri yayılıb. Başqa bir xəbər, guya, evin dindar bir şəxs tərəfindən sığınacaq kimi istifadə edildiyinə dair idi. Lakin adayla bağlı ortaya çıxan reallıq bu şayiələrin əsassız olduğunu göstərdi. Məlum oldu ki, tərk edilmiş, tənha görkəmə malik tikili, əslində yaşayış evi deyilmiş. Ellidaey Ovçuluq Dərnəyinə aid "ovçu evi" imiş. Bu ev təbiəti mühafizə məqsədilə qorunub saxlanılır və oranın az saylı sakinləri olan dərnək üzvləri də təbiətin mühafizə etmək vəzifəsini yerinə yetirir. Ellidaey adası ətrafında böyük qağayı sürüsü yaşayır. Bu qağayılar nəsli tükənməkdə olan növdür. Lakin İslandiyada onları ovlamaq qanunla qadağan deyil. Ada özlüyündə fırtına quşları - qağayılar və digər dəniz quşlar üçün təbii məskənə çevrilib. Bu mənada ada həm də təbiətin mühafizəçisi rolundadır. Adanın elektrik enerjisi təminatı, axar suyu və ya qapalı təsisat sistemi olmadığından insan yaşayışı üçün uyğun deyil. Adada internet şəbəkəsinin varlığını da düşünmək sadəlövhlük olar. Sosial mediada evin fotoları yayıldıqdan sonra 25 min bəyənmə toplayıb. Görənlərin demək olar hamısı evi bəyənir. Bəyənənlər "yaşamaq üçün ən gözəl yer kimi görünür" yazırsa, digəri "bəli, amma acana qədər", cavabını verir. Başqa bir izləyici isə "göründüyü qədər də uzaq deyil. Gün ərzində bir neçə dəfə qayıqlar üzüb keçir. Ovçu klubunun üzvü deyilsinizsə, sizi ora buraxmayacaqlar" qeydini edib.

**Məlahət**



# Sevgilisi ilə arxiv görüntüləri yayılıb

## Video Berenin pərəstişkarlarının kədərlənməsinə səbəb olub

**Məşhur aktrisa Beren Saat ilə bağlı xəbər var.**

Aktrisanın məktəb illərində sevgili olduğu, lakin dəhşətli yol qəzası nəticəsində itirdiyi Efe Gürayla birgə arxiv fotolarından hazırlanmış video sosial mediada yayılıb. Belə ki, sosial şəbəkədə gündəm olan bu video Berenin pərəstişkarlarının kədərlənməsinə səbəb olub.

*Qeyd edək ki, sevgilisi Efe Gürayı dəhşətli yol qəzası nəticəsində itirən aktrisa onun ölümündən çox sarsılmışdı. Həmçinin aktrisa gözəllik yarışmasına da onun təkidi ilə qatıldığını söyləmişdi.*